KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 420 Sentyabr 2022



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# YENİ DƏRS İLİ BAŞLANDI
# THE NEW ACADEMIC YEAR BEGAN




















Khazar

# İÇİNDƏKİLƏR


"Dünya" məktəbinin şagirdi İbrahim Allahverdiyev Almaniyada keçirilən yarışmada ikiqat dünya 1-cisi oldu......6
Gürcüstanın Tbilisi şəhərində professor, akademik Hamlet İsaxanlının həmtəsisçiliyi ilə East-West Teaching University yaradılmışdır......7
Xəzər Universitetinin tələbələri "Creative Spark Big idea Challenge 2022" müsabiqəsi çərçivəsində yenə ölkə çempionatının qalibi oldular......8
"Xəzər"ə təşəkkür məktubları......10
Yozgat Bozok Universiteti ilə anlaşma protokolu imzalandı......12
"Təhlilçi Məzun" təcrübə proqramını bitirənlərə sertifikat təqdim olunub......13
Xəzər Universiteti ilə Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmiş AMEA-nın biologiya sahəsi üzrə elmi tədqiqat institutlarının görüşü......14
İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin tədqiqatçıları "Xəzər"də......16
Xəzər Universitetinin Türkiyənin Bilecik Şeyh Edebali Universiteti ilə görüşü......18
Professor, akademik Hamlet İsaxanlının Türkiyə səfiri ilə görüşü......19
Təhsil eksperti: "Yalnız Xəzər Universiteti yüksək keyfiyyətli təhsil verməyi bacarır"......19
Professor, akademik Hamlet İsaxanlının "Мой Карабах или Карабахский узел" kitabı çapdan çıxıb......20
Türkiyənin Qafqaz Universiteti ilə əməkdaşlıq əlaqələri qurulur......25
Departament müdirinin birinci müəllifi olduğu kitab Springer nəşriyyatı tərəfindən çap olunmuşdur......26
"Xəzər"in əməkdaşları ADAU-nun Baytarlıq təbabəti fakültəsində və HETİ-də......31
Xəzər Universiteti ilə Genetik Ehtiyatlar İnstitutu əməkdaşlığa başlayır......33
*Hamlet İsaxanlı*. Nizami Gəncəvi. Kimliyi və ideyalar aləmi......40
Xəzər Universiteti ilə Mikrobiologiya İnstitutu arasında əməkdaşlıq genişlənir......54
Xəzər Universiteti ilə Torpaqşünaslıq və Aqrokimya institutu arasında əməkdaşlıq məsələləri müzakirə olunub......55
*Aynur Qəzənfərqızı*. Çin xatirələri......56
*Əli Mehdiyev*. Erasmus-dan əliboş dönməyəcəksiniz......62
*Bünyamin Bünyadzadə*. "Həll olunmayan mübahisə qalmayacaq!"......64
"Xəzər"in beynəlxalq əlaqələri......67
"Xəzər" ölkə mediasında......76


*Jurnalın üz qabığında: professor, akademik Hamlet İsaxanlı Sumqayıt "Dünya" məktəbinin idmançı şagirdi Elməddin Səlimli ilə*


1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küşəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

**Ibrahim Allahverdiyev, “Dunya” school student, becomes the double world champion in the competition held in Germany ......6**
**East-West Teaching University Established in Tbilisi, Georgia, with the co-founding of Professor, Academician Hamlet Isakhanli ......7**
**Khazar University students win another Country Championship within “Creative Spark Big Idea Challenge 2022” ......8**
**Letters of Thanksto Khazar University ......10**
**Memorandum of Understanding Signed with Yozgat Bozok University ......12**
**Certificates were awarded to those who completed internship under “Graduate Analyst” program ......13**
**Meeting between Khazar University and Scientific Research Institutes of ANAS under the Ministry of Science and Education in the field of biology ......14**
**Researchers from the Swedish University of Agricultural Sciences at Khazar University ..16**
**Meeting of Khazar University with Turkey’s Bilecik Sheikh Edebali University ......18**
**Meeting of Professor, Academician Hamlet Isakhanli with the Ambassador of Türkiye ...19**
**Education expert: “Only Khazar University can provide high-quality education” ......19**
**The book “ Мой Карабах или Карабахский узел” by professor, academician Hamlet Isakhanli published ......20**
**Cooperation Relations Established with Qafqaz University of Türkiye ......25**
**The book, the first author of which is Departament Head of Khazar University published by Springer Publishing House ......26**
**Khazar University Staff Members at ASAU Faculty of Veterinary Medicine and Scientific Research Institute of Animal Husbandry ......31**
**Khazar University and Institute of Genetic Resources Start Cooperation ......33**
*Hamlet Isakhanli*. **Nizami Ganjavi. His identity and the world of ideas (*in Azerbaijani*) ......40**
**Cooperation between Khazar University and Institute of Microbiology is expanding ......54**
**Issues of Cooperation between Khazar University and Institute of Soil Science and Agrochemistry Discussed ......55**
*Aynur Gazanfargizi*. **Chinese memories (*in azerbaijani*) ......56**
**You will bring something special back at the end of your Erasmus ......62**
*Bunyamin Bunyadzadeh*. **“No dispute will remain unsolved!”(*in azerbaijani*) ......64**
**“Khazar”s international relations ......67**
**“Khazar”in country`s media ......76**

*On the cover of the journal: professor, academician Hamlet Isakhanli with the athlet student of Sumgait “Dunya“ school Elmeddin Selimli*

It has been published since January 1995

**Founder:**
Khazar University

Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

## "XƏZƏR"İN ƏMƏKDAŞI "ƏMƏK MEDİASİYASI" TƏLİMİNDƏ
## KHAZAR UNIVERSITY STAFF MEMBER AT "LABOR MEDIATION"

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova iyulun 15-19-da Ədliyyə Akademiyası tərəfindən təşkil edilən "Əmək Mediasiyası" təlimində iştirak etmiş və sonda müvəffəqiyyətlə imtahan vermişdir.

Təlimdə mediasiyanın əmək mübahisələrində necə tətbiq ediləcəyi nəzəri cəhətdən tədris olunmuş və praktiki çalışmalarla nümayiş etdirilmişdir.

Qeyd edək ki, Mələk Kərimova Mediasiya Şurasının üzvü təyin olunmuşdur.

Azərbaycanda yeni tətbiq edilən mediasiya prosesinə Xəzər Universitetində Erasmus+ Mediats layihəsi çərçivəsində yaradılmış Mediasiya ixtisası üzrə MBA proqramının da böyük töhfə verəcəyi gözlənilir.

Malak Karimova, coordinator of Khazar University Psychology Department, participated in the "Labor Mediation" training organized by the Academy of Justice on July 15-19, 2022 and successfully passed the exam.

The training theoretically taught the use of mediation in labor disputes and demonstrated it through practical exercises.

Note that Melek Karimova was appointed a member of the Mediation Council.

It is expected that the Mediation MBA program established under the Erasmus+ MEDIATS project at Khazar University will make a great contribution to the newly introduced mediation process in Azerbaijan.




## "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDİ İBRAHİM ALLAHVERDİYEV ALMANİYADA KEÇİRİLƏN YARIŞMADA İKİQAT DÜNYA 1-CİSİ OLDU
## IBRAHIM ALLAHVERDIYEV, "DUNYA" SCHOOL STUDENT, BECOMES THE DOUBLE WORLD CHAMPION IN THE COMPETITION HELD IN GERMANY

İyulun 19-23-də Almaniyanın Frankfurt şəhərində Beynəlxalq STEM Olimpiadası keçirilib. 14 ölkədən 285 iştirakçının qatıldığı olimpiadada təbiət elmləri, riyaziyyat və kodlaşma kateqoriyaları üzrə iştirakçılar fərqləndirilib.

Azərbaycanın da təmsil olunduğu yarışmada 6 nəfər 1-ci, 5 nəfər- 2-ci, 1 nəfər isə 3-cü yeri qazanıb.

Ölkəyə birincilik qazandıran şagirdlərdən biri də Xəzər Universiteti "Dünya" məktəbinin İB qrupunda təhsil alan İbrahim Allahverdiyev Nizami oğludur. İ.Allahverdiyev rəqiblərini üstələyərək, 1-ci yerə layiq görülmüşdür. O, riyaziyyat və təbiət elmləri kateqoriyaları üzrə Azərbaycana iki birincilik qazandıran yeganə şagirdimiz olmuşdur.

*Azpress.az* saytı bu barədə xəbər yayımlamışdır:

On July 19-23, the International STEM Olympiad was held in Frankfurt, Germany. In the Olympiad, which was attended by 285 participants from 14 countries, participants in the categories of natural sciences, mathematics and coding were distinguished.

We had students who achieved high results in the competition where Azerbaijan was also represented. Thus, 6 people took the 1st place, 5 people the 2nd place, and 1 person the 3rd place.

One of the students who won first place in our country is Ibrahim Allahverdiyev Nizami oglu, who studied in the IB group of Khazar University "Dunya" school. I.Allahverdiyev won the 1st place, surpassing his competitors. He was our only student who took two first prizes for Azerbaijan in the categories of mathematics and natural sciences.

The website *Azpress.az* published news about it.

*https://azpress.az/index.php?lang=az&sectionid=news&id=124405*

# GÜRCÜSTANIN TBİLİSİ ŞƏHƏRİNDƏ PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ HƏMTƏSİSÇİLİYİ İLƏ *EAST-WEST TEACHING UNİVERSİTY* YARADILMIŞDIR

# *EAST-WEST TEACHING UNIVERSITY* WAS ESTABLISHED IN TBILISI, GEORGIA, WITH THE CO-FOUNDING OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

Gürcüstanın Tbilisi şəhərində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor, Hamlet İsaxanlı və İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin keçmiş prorektoru, professor Teymuraz Xurodze`nin birgə təsisçiliyi ilə East-West Teaching University yaradılaraq, beynəlxalq akkreditasiyadan keçmişdir. Universitetin yaranmasını Gürcüstanın tanınmış iş adamı Zaza Nişnianidze dəstəkləyib.

Universitetin təsisçilərindən biri Tbilisidə yerləşən multidissiplinar və ixtisaslaşmış klinikaların əsas səhmdarı olduğu üçün əvvəlcə həkimlik ixtisasının həyata keçirilməsi məqsədəuyğun hesab edilib. Yüksək ixtisaslı tibb kadrlarının yetişdirilməsi üçün universitet strukturunda klinikaların olmasının nə qədər önəmli olduğu məlumdur.

Birgə səylər maddi-texniki bazası, səriştəli professor-müəllim heyəti və müasir tələblərə cavab verən təhsil proqramları ilə regionun ən görkəmli ali təhsil ocaqlarından birinə çevriləcək yeni universitet qurulmasına imkan yaradıb. Beynəlxalq standartlara cavab verəcək təhsil mühiti yaradaraq, onu daha da inkişaf etdirməyi qarşısına məqsəd qoymuş East-West Teaching University Cənubi Qafqazın təhsil sahəsində regional əməkdaşlığının gözəl nümunəsidir.

Universitetin saytı: *https://eastwest.edu.ge/*

Universitetin Akkreditasiya Mərkəzinin saytı: *https://eqe.ge/en/deqars/734/show*

Azərbaycanın informasiya agentlikləri və xəbər portalları universitetin yaranması haqqında xəbər yayımlamışlar:

The East-West Teaching University (Tbilisi, Georgia) was founded recently on the joint decision of the founder, Chairman of the Board of Directors and Trustees of Khazar University, Full member, of the Georgian National Academy of Sciences Professor, Hamlet Isakhanli and former vice-rector of the Ivane Javakhishvili Tbilisi State University, Prof. Teimuraz Khurodze and internationally accredited. This decision was supported by a well-known businessman in Georgia, Ph.D. Zaza Nishnianidze.

As one of the founders of the university is the main shareholder of multi-profile and specialized clinics located in Tbilisi, it was found reasonable to implement the Medical Doctor education program first. It is well-known how much the existence of clinics inside the university structure means for the university to upbringing highly qualified medical specialists. The overall efforts made it possible to establish a university, which will be one of the most outstanding institutions in the region, with its material base, academic personnel with adequate competence, and educational programs with modern standards.

This university is a good example of South Caucasus regional cooperation in education. Professor Hamlet Isakhanli, who is also a member of the Georgian National Academy of Science, with Georgian scientists are the founders of East-West Teaching University.

The university aims for further development of the educational environment in the light of modern international standards, which will respond to modern challenges with high quality educational programs.

*https://azertag.az/en/xeber/East_West_Teaching_University_internationally_recognized_center_for_quality_education_in_Medicine_and_health_care-2271296*

*https://fed.az/az/tehsil-ve-elm/azerbaycanli-is-adami-gurcustanda-universitet-acdi-tibbi-tehsil-olacaq-139437*

*https://xeber.media/news/19107380/serq-qerb-universiteti-cenubi-qafqazin-tehsil-sahesinde-regional-emekdasliq-numunesidir*

*http://tehsil-press.az/index.php?newsid=69844#newsbase1* və s.



CREATIVE SPARK BIG IDEA CHALLENGE 2022

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ *“CREATİVE SPARK BİG İDEA CHALLENGE 2022”* MÜSABİQƏSİ ÇƏRÇİVƏSİNDƏ YENƏ ÖLKƏ ÇEMPİONATININ QALİBİ OLDULAR

## KHAZAR UNIVERSITY STUDENTS WIN ANOTHER COUNTRY CHAMPIONSHIP WITHIN THE *“CREATIVE SPARK BIG IDEA CHALLENGE 2022”*

İyulun 21-də London Metropolitan Universiteti (Böyük Britaniya) və British Council tərəfindən ortaq icra edilən “Big Idea Challenge 2022” müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi həyata keçirildi. Mərasimdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakə Fövqəladə və səlahiyyətli səfiri James Lyle Sharp iştirak edirdi.

On July 21, the awarding ceremony for the winners of the “Big Idea Challenge 2022”, annual competition jointly organized by British Council and London Metropolitan University (United Kingdom). The event was attended by Her Britannic Majesty’s Ambassador, Mr. James Lyle Sharp.

The Big Idea Challenge 2022 winners from

Qürurverici haldır ki, bu il də ölkə üzrə çempion və qaliblər məhz Xəzər Universitetindən oldu.

Ölkə üzrə çempion:

1. İbrahim Gülməliyev, Namiq Əlizadə və Nuray Əliyeva, İqtisadiyyat və menecment fakültəsi, Biznesin idarə edilməsi ixtisası.

Kateqoriya üzrə qaliblər:

2. İbrahim Gülməliyev, Namiq Əlizadə və Nuray Əliyeva, İqtisadiyyat və menecment fakültəsi, Biznesin idarə edilməsi ixtisası, Rəqəmsal Texnologiya kateqoriyası üzrə ölkə qalibi.

3. Etibar Xıdırov (İqtisadiyyat və menecment fakültəsi, Turizm və otelçilik ixtisası) və Türkan Mürsəlova (Humanitar, təhsil və sosial elmlər fakültəsi, Azərbaycan dili və ədəbiyyatı ixtisası) Sosial təsir kateqoriyası üzrə ölkə qalibi.

İbrahim, Namiq və Nurayı ölkə çempionu edən "MOOD" ideyası şagird və tələbələrə psixoloji cəhətdən kömək etmək üçün nəzərdə tutulmuş proqram idi. Həmçinin, Etibar və Türkanın ölkə qalibi olmasına imkan verən ideya isə sosial və sosial sahibkarlıq layihələrini, QHT-ləri və icma qruplarını bir araya gətirən onlayn platforma olan "Destekchi" idi.

"Big Idea Challenge" müsabiqəsi Creative Spark proqramının həyata keçirildiyi ölkələrdən olan gəncləri yenilikçi "startap"lar yaratmağa təşviq edən videotəqdimat müsabiqəsidir. Müsabiqə British Council`ın təşəbbüsü ilə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Birləşmiş krallığın Newcastle Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində aparılan "Creative Spark" layihəsinin bir parçasıdır. Layihə sahibkarlığın əsaslarını və ideyanı konsepsiyadan reallığa necə inkişaf etdirməyi öyrətmək məqsədi güdən British Council-ın 60 saniyəlik video müsabiqəsidir. Müsabiqənin əsas məqsədi "Creative Spark" proqramı çərçivəsində Azərbaycandan olan tələbələri və onların yeni biznes ideyalarını dəstəkləmək və istedadlıları üzə çıxarmaqdır.

Təbiət elmləri və mühəndislik fakültəsinin tələbəsi Təravət Əsgərova ötən il Sosial təsir kateqoriyasında ölkə qalibi olmaqla bugünki nailiyyətə bir yol açmışdı.

Qaliblər fərdi biznes dəstəyi və biznes ideyasını həyata keçirmək üçün əlavə maddi dəstək əldə edəcəklər.

each category are:

1. brahim Gulmeliyev, Namiq Alizade, and Nuray Aliyeva, School of Economics and Management, majoring in Business Administration, Country Champion.

2.Ibrahim Gulmeliyev, Namiq Alizade, and Nuray Aliyeva, School of Economics and Management, majoring in Business Administration, Country Winner on Digital Technology Category.

3.Etibar Khidirov, School of Economics and Management majoring in Tourism and Hotel Management, and Turkan Mursalova, School of Humanities, Education and Social Sciences majoring in Azerbaijan Language and Literature, Country Winner on Social Impact Category.

The idea which made Ibrahim, Namiq, and Nuray Country Champion was MOOD, a software application that designed to provide advice and help pupils and students with psychological. Moreover, the idea allowed Etibar and Turkan to be Country Winner was Destekchi, an online platform that brings together social and social entrepreneurship projects, NGOs, and community groups.

Once again Creative Spark Big Idea Challenge is the British Council's 60-second video pitching competition designed to teach the basics of entrepreneurship and how to develop an idea from concept to reality. The main aim of the competition is to support students from Azerbaijan and their new business ideas as part of the Creative Spark program, and to unlock incredible creative talents.

Taravat Askarova, student at School of Science and Engineering was "Country Winner" in the category of social impact last year, that she empowered our students for today's accomplishment.

Winners will get personalized business support and additional on bringing business idea to life.

We would like to congratulate our 2022 Big Idea Challenge winners and everyone who supported students of Khazar University this year.

# "XƏZƏR"ə TƏŞƏKKÜR
# LETTER OF THANKS

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

**Xəzər Universitetinin təsisçisi
professor Hamlet İsaxanlıya**

Hörmətli Hamlet müəllim,

"Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabı təqdim etdiyiniz üçün minnətdarlığımı bildirir, Sizə elmi, elmi-təşkilati və pedaqoji fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*
**AMEA-nın prezidenti v.i.e. akademik
Arif Həşimov**

*28 iyul 2022-ci il*

## AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES

**To Professor Hamlet Isakhanli,
Founder of Khazar University**

Dear Hamlet Isakhanli,

I express my gratitude for presenting the book "My Karabakh or the Karabakh Knot", I wish you success in your scientific, scientific-organizational and pedagogical activities.

*Sincerely,*
**Acting President of ANAS, Academician
Arif Hashimov**

*July 28, 2002*

## AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ

**Xəzər Universitetinin rektoru
xanım İradə Xəlilovaya**

Hörmətli İradə xanım,

Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlının Azərbaycan dilində nəşr edilmiş "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabını mənə göndərdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, müəllifin "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitabı tariximizin öyrənilməsində və gənc nəslin formalaşmasında özünəlayiq yer tutacaqdır.

Bundan sonrakı fəaliyyətində də Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlıya və Xəzər Universitetinin kollektivinə uğurlar diləyirəm.

*Hörmətlə,*
**Nazir Mədət Quliyev**

*29 iyul 2022-ci il*

## MINISTRY OF DEFENSE INDUSTRY OF THE REPUBLIC OF AZERBAIJAN

**To Irada Khalilova,
Rector of Khazar University**

Dear Irada Khalilova,

I would like to thank you very much for sending me the book "My Karabakh or the Karabakh Knot" published in Azerbaijani by the founder of Khazar University, professor Hamlet Isakhanli.

I am sure that the author's book "My Karabakh or the Karabakh Knot" will take a worthy place in the study of our history and in the formation of the younger generation.

I wish the founder of Khazar University, professor Hamlet Isakhanli and the staff of Khazar University, success in their future activities.

*Sincerely,*
**Minister Madat Guliyev**

*July 29, 2022*

# MƏKTUBLARI
# TO KHAZAR UNIVERSITY

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SƏRHƏD XİDMƏTİ

**Xəzər Universitetinin rektoru**
**İradə xanım Xəlilovaya**

Hörmətli İradə xanım,

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə göndərdiyiniz "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı dərin məzmunlu, dövrünün ictimai-siyasi həyatını əks etdirən kitaba görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Azərbaycan xalqının görkəmli ziyalısı professor Hamlet İsaxanlıya yaradıcılıq uğurları arzulayırıq.

*Hörmətlə,*
**İdarə rəisi Nağı Eyvazov**

*04 avqust 2022-ci*

## STATE BORDER SERVICE OF THE REPUBLIC OF AZERBAIJAN

**To Irade Khalilova, Rector of Khazar University**

Dear Irada Khalilova,

We express our deep gratitude to you for the book "My Karabakh or the Karabakh Knot" that you sent to the State Border Service of the Republic of Azerbaijan, with deep content, reflecting the social and political life of the time.

We wish Professor Hamlet Isakhanli, an outstanding intellectual of the Azerbaijani people, creative success.

*Sincerely,*
**Department Head Nagi Eyvazov**

*August 04, 2022*

## AZƏRBAYCAN UNİVERSİTETİ

**Xəzər Universitetinin rektoru**
**İradə xanım Xəlilovaya**

Hörmətli İradə xanım,

Azərbaycan Universitetinə hədiyyə olaraq göndərdiyiniz "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı kitab Elmi kitabxananın fonduna daxil edilmişdir.

Tədris prosesində, həmçinin tariximizin araşdırılmasında Universitetimizin tələbə və müəllimlərinə faydalı olacağına əmin olduğumuz bu kitab üçün Sizə dərin təşəkkürümüzü bildirir və əməkdaşlığımızın gələcəkdə də davam edəcəyinə ümid edirik.

*Hörmətlə,*
**Rektor S. N. Əliyeva**

*10 avqust 2022-ci il*

## AZERBAIJAN UNIVERSITY

**To Irada Khalilova, Rector of Khazar University**

Dear Irada Khalilova,

The book "My Karabakh or the Karabakh knot" that you sent as a gift to Azerbaijan University was included in the collection of the scientific library.

We sincerely thank you for this book, which we are sure will be useful to the students and academic staff of our University in the teaching process, as well as in the study of our history, and we hope that our cooperation will continue in the future.

*Sincerely,*
**Rector S.N.Aliyeva**

*August 10, 2022*




## YOZGAT BOZOK UNİVERSİTETİ İLƏ ANLAŞMA PROTOKOLU İMZALANDI

Avqustun 2-də Türkiyənin Yozgat Bozok Universitetinin rəhbərliyi ilə görüş keçirildi.

Görüşdə Xəzər Universitetinin rektoru İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, İctimai Əlaqələr və Media üzrə direktor Əlövsət Əmirbəyli, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin Təminatı Mərkzinin direktoru Lyudmila Sotova, Azərbaycan dili və ədəbiiyyatı departamentinin müəllimi Xatirə Yusifova, Mövlana Elmi-Fəlsəfi Araşdırmalar İnstitutunun (MEFAİ) direktoru Nəzakət Məmmədli və Beynəxalq Əlaqələr üzrə koordinatorlar Arzu Bədəlova və Hüseyn Əliyev iştirak etdilər. Yozgat Bozok Universitetinin rektoru Prof. Dr. Ahmet Karadağ universitet haqqında geniş məlumat verdi. Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair anlaşma protokolu imzalandı.

İmzalanma mərasiminin sonunda hər iki tərəf bir-birinə hədiyyə təqdim etdi.

Qeyd edək ki, Yozgat Bozok Universiteti 1 mart 2006-cı ildə Yozgatda qurulan dövlət universitetidir.

## MEMORANDUM OF UNDERSTANDING SIGNED WITH YOZGAT BOZOK UNIVERSITY

On August 2, a meeting was held with the administration of Yozgat Bozok University of Türkiye.

The meeting was attended by Rector of Khazar University Irada Khalilova, Vice-Rector for Management and Student Affairs Isakhan Isakhanli, Dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova, Director of Public Relations and Media Alovsat Amirbeyli, Director of the Development Center Raziya Isayeva, Director of the Quality Assurance Center Lyudmila Sotova, Azerbaijani language and literature department instructor Khatira Yusifova, director of the Mevlana Scientific and Philosophical Research Institute (MEFAI) Nazakat Mammadli and International relations coordinators Arzu Badalova and Huseyn Aliyev. Rector of Yozgat Bozok University Prof. Dr. Ahmet Karadag gave extensive information about the university. A memorandum of understanding on enhancing bilateral relations was signed at the meeting.

It should be noted that Yozgat Bozok University is a state university established in Yozgat on March 1, 2006.

At the end of the signing ceremony, both sides presented each other with gifts.

# "TƏHLİLÇİ MƏZUN" TƏCRÜBƏ PROQRAMINI BİTİRƏNLƏRƏ SERTİFİKAT TƏQDİM OLUNUB

# CERTIFICATES WERE AWARDED TO THOSE WHO OMPLETED INTERNSHIP UNDER "GRADUATE ANALYST" PROGRAM

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən gənc peşəkarların yetişdirilməsi və ölkənin insan kapitalının formalaşdırılmasına töhfə vermək məqsədilə görülən işlər çərçivəsində ötən ay Azərbaycan Dövlət İqtisad Universiteti, ADA Universiteti, Xəzər Universiteti və Azərbaycan-Fransız Universiteti kimi partnyor universitetlərlə birgə işbirliyi əsasında təşkil olunan "Təhlilçi Məzun" təcrübə proqramı başa çatıb

Təcrübə proqramı çərçivəsində iştirakçılar Fondun İnvestisiya, Risklərin idarə edilməsi, Neft kontraktları, Büdcə proqnozlaşdırması və layihələr, Hesablaşmalar, Təhlükəsizlik, İnsan resursları və Hüquq departamentlərində real iş mühitində mentorlarla birlikdə əyani tapşırıqlar üzərində işləməklə müvafiq sahələrdə praktiki bilik və vərdişlər qazanıblar.

2022-ci il avqustun 4-də proqramın bağlanış və təltif mərasimi Fondun rəhbər heyətinin nümayəndələri, struktur bölmə rəhbərləri və mentorların iştirakı ilə yüksək əhval-ruhiyyədə keçib.

Bağlanış mərasimində çıxış edən mentorlar gənc təcrübəçilərə gələcək karyeralarına dair öz tövsiyələrini veriblər. Proqram ilə bağlı təəssüratlarını bölüşən iştirakçılar çıxışlarında Fondda əldə etdikləri bu unikal təcrübənin onlara qazandırdığı dünyagörüşü, yeni inkişaf imkanları barədə danışıblar.

Təcrübəçiləri sertifikatla təltif edən ARDNF-in İcraçı direktorunun müşaviri, Nərgiz Nəsrullayeva-Müdüroğlu onlarla öz şəxsi təcrübəsini paylaşaraq vurğulayıb ki, maliyyə sektorunda uğur qazanmaq üçün yalnız texniki biliklər kifayət deyil, emosional zəka, ünsiyyət, danışıqlar aparmaq, liderlik kimi bacarıqlar da olduqca böyük əhəmiyyət kəsb edir.

*AZƏRTAC* və digər saytlar tədbir haqqında xəbər yayımlayıblar.

The internship program "Graduate Analyst" organized last month by the State Oil Fund of the Republic of Azerbaijan (SOFAZ) in cooperation with partner universities such as Azerbaijan State University of Economics, ADA University, Khazar University and Azerbaijan-French University as part of the work done to train young professionals and contribute to the formation of the country's human capital is over.

Within the framework of the internship program, participants gained practical knowledge and skills in the relevant fields by working with mentors in a real work environment in the Investment, Risk management, Oil contracts, Budget forecasting and projects, Accounts, Security, Human resources and Law departments of the Fund.

On August 4, 2022, the closing and awarding ceremony of the program was held in high spirits with the participation of representatives of the Fund's management team, heads of structural units and mentors.

Speaking at the closing ceremony, the mentors gave young interns their advice on their future careers. Sharing their impressions about the program, the participants talked about the worldview and new development opportunities that this unique experience gained at the Foundation gave them in their speeches.

Nargiz Nasrullayeva-Muduroglu, who awarded the trainees with a certificate, shared her personal experience with them and emphasized that only technical knowledge is not enough to succeed in the financial sector, skills such as emotional intelligence, communication, negotiation and leadership are also very important.

*AZERTAC* and other websites published news about the event.

*https://azertag.az/xeber/Dovlet_Neft_Fondunda_tecrube_proqrami_basa_chatib-2240054*

# XƏZƏR UNİVERSİTETİ İLƏ ELM VƏ TƏHSİL NAZİRLİYİNİN TABELİYİNƏ VERİLMİŞ AMEA-NIN BIOLOGİYA SAHƏSİ ÜZRƏ ELMİ TƏDQİQAT İNSTİTUTLARININ GÖRÜŞÜ

# MEETING BETWEEN KHAZAR UNIVERSITY AND SCIENTIFIC RESEARCH INSTITUTES OF ANAS UNDER THE MINISTRY OF SCIENCE AND EDUCATION IN THE FIELD OF BIOLOGY



Avqustun 8-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının dəvəti ilə Elm və Təhsil Nazirliyinin tabeliyinə verilmiş AMEA-nın biologiya sahəsi üzrə elmi tədqiqat institutlarının rəhbərləri ilə görüş keçirildi. Görüş Xəzər Universitetinin Buzovnadakı Konfrans və İstirahət Mərkəzində baş tutmuşdur.

Görüşdə Xəzər Universitetinin təsisçisi professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı dosent Səidə Şərifova, dekan müavini dosent Məhəmməd Eldarov, Həyat elmləri departamentinin müdiri dosent Səltənət Ağayeva, departamentin dosenti Cavid Ocaği və koordinatoru Ayaz Məmmədov, Genetik Ehtiyatlar İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü professor Zeynal Əkpərov, icraçı direktoru dosent Mehrac Abbasov və b.ü.f.d. Səbinə Mehdiyeva, Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü professor Pənah Muradov, Mikrobioloji biotexnologiya laboratoriyasının müdiri dosent Könül Baxşəliyeva, Zoologiya İnstitutunun direktor vəzifəsini icra

On August 8, at the invitation of Professor, academica, Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, a meeting was held with the heads of scientific research institutes in the field of biology of ANAS under the Ministry of Science and Education. The meeting took place at the Khazar University Conference and Leisure Center.

The meeting was attended by founder of Khazar University, professor, academica, Hamlet Isakhanli, rector of the university Associate Professor Irada Khalilova, vice-rector for Management and Student Affairs Isakhan Isakhanli, Associate Professor Saida Sharifova, dean of the Graduate School of Science, Art and Technology, deputy dean Associate Professor Mahammad Eldarov, Associate Professor Saltanat Aghayeva, head of the Department of Life Sciences, Associate Professor of the department Javid Ocaği and coordinator Ayaz Mammadov, general director of the Institute of Genetic Resources, corresponding member of ANAS, Professor Zeynal Akparov, executive director Associate Professor Mehraj Abbasov and Doctor of Philosophy in Biology Sabina Mehdiyeva, general director of the Institute of Microbiology, Corresponding Member of ANAS, Professor Panah Muradov, head of the Laboratory of Microbiological Biotechnology, Associate Professor Konul Bakhshaliyeva, Associate Professor Aladdin

edən dosent Ələddin Eyvazov, Biofizika İnstitutunun icraçı direktoru professor Kərim Qasımov, Zoologiya İnstitutunun dosenti Təvəkkül İskəndərov, dosent Barat Əhmədov, Fiziologiya İnstitutunun İmmunologiya və transplantologiya laboratoriyasından b.ü.f.d. Xatirə Səfixanova, Ekotoksikologiya laboratoriyasından b.ü.f.d. Aliya Qaysina, Mərkəzi Nəbatat Bağının İcraçı direktoru dosent Həsən Babayev, elmi katibi dosent Nilufər Hüseynova, böyük elmi işçisi dosent Ofelya Qafarova və boyük elmi işçisi dosent Günay Məmmədova iştirak edirdilər.

Qeyd edək ki, Xəzər Universitetinin AMEA-nın bir sıra institutları ilə qarşılıqlı rəsmi əməkdaşlıq memorandumu vardır və bu əməkdaşlıq çərçivəsində elm və təhsil sahəsində bir sıra əhəmiyyətli işlər görülməkdədir.

Görüşdə qarşılıqlı əlaqənin, birgə elmi fəaliyyətin möhkəmləndirilməsi, elmi kadrların hazırlanması, beynəlxalq layihələrin icrası, tədqiqat qruplarının yaradılması, müştərək beynəlxalq məqalələrin yazılması, beynəlxalq konfranslar, seminarlar və təlimlərin keçirilməsi, həmçinin digər aktual məsələlər geniş müzakirə olundu.

Eyvazov, Acting Director of the Institute of Zoology, Professor Karim Gasimov, Executive Director of the Institute of Biophysics, Associate Professor Tavakkul Iskanderov of the Institute of Zoology, Associate Professor Barat Ahmadov, Khatira Safikhanova, PhD in Biology of the Laboratory of Immunology and Transplantology of the Institute of Physiology, Aliya Kaysina, PhD in Biology of the Laboratory of Ecotoxicology, Associate Professor Hasan Babayev, Executive Director of the Central Botanical Garden, Scientific Secretary Associate Professor Nilufar Huseynova, Senior Researcher Associate Professor Ofelya Gafarova and Senior Researcher Associate Professor Gunay Mammadova.

Note that Khazar University has an official cooperation memorandum with a number of institutes of ANAS, and within the framework of this cooperation numerous significant works in the field of science and education are being carried out.

Enhancing mutual relationships and joint scientific activity, training scientific personnel, implementation of international projects, creation of research groups, writing joint international articles, holding international conferences, seminars and trainings, as well as other relevant issues were widely discussed at the meeting.





# İSVEÇ KƏND TƏSƏRRÜFATI ELMLƏRİ UNİVERSİTETİNİN TƏDQİQATÇILARI "XƏZƏR"DƏ

# MEETING WITH RESEARCHERS FROM THE SWEDISH UNIVERSITY OF AGRICULTURAL SCIENCES

Avqustun 22-24-də Xəzər Universitetində və Xəzər Universitetinin Buzovnadakı Konfrans və İstirahət Mərkəzində İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin tədqiqatçıları ilə bir sıra görüşlər keçirilmişdir. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı dosent Səidə Şərifova, dekan müavini dosent Məhəmməd Eldarov, Həyat elmləri departamentinin müdiri dosent Səltənət Ağayeva, departamentin dosenti Cavid Ocaği və koordinatoru dosent Ayaz Məmmədov iştirak etmişlər.

Görüşdə Xəzər Universitetinin Həyat elmləri qrupunun tədqiqatçıları Azərbaycandakı mövcud vəziyyət haqqında topladıqları məlumatı təqdim etmişlər.

Görüş zamanı İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin Tədqiqat fakültəsinin koordinatoru dosent Galia Zamaratskaia universitetin departamentləri və digər təşkilatları, layihənin mahiyyəti və əsas hədəfləri haqqında ətraflı məlumat vermişdir. Həmçinin, layihə çərçivəsində Həyat elmləri departamentinin əməkdaşları tərəfindən Azərbaycanın müxtəlif regionlarında heyvanların rifahı haqqında fermerlərlə keçirilmiş sorğuların nəticələrini dosent Ayaz Məmmədov təqdim etmişdir.

Xəzər Universiteti "Baltik Dənizi Regionunda

On August 22-24, a series of meetings were held with representatives of the Swedish University of Agricultural Sciences that were held at Khazar university and then at the Khazar University Conference and Leisure Center. The meeting was attended by founder of Khazar University, Professor, academica, Hamlet Isakhanli, rector of the university assoc.prof. Irada Khalilova, assoc. prof. Saida Sharifova, dean of the Graduate School of Science, Art and Technology, deputy dean assoc.prof. Mahammad Eldarov, assoc.prof. Saltanat Aghayeva, head of the Department of Life Sciences, assoc.prof. of the department Javid Ocaği and coordinator Ayaz Mammadov. Khazar university researchers of the life science team collected information about the current situation in Azerbaijan and presented them at the meeting. During the meeting, Hallvard Wie gave a presentation about their university and assoc. prof. Galia Zamaratskaia detailed information about the nature and main goals of the project. Within the framework of the project, assoc.prof. Ayaz Mammadov presented the survey results collected from farmers about the welfare of animals in different regions of Azerbaijan.

Khazar University is one of the partners of the project titled "Happy ANIMals for Sustainable Production and Consumption" (project acronym –

Akademik Əməkdaşlıq" üzrə Sosial İnnovasiya maliyyələşdirmə proqramı tərəfindən maliyyələşdirilən "Dayanıqlı İstehsal və İstehlak üçün Xoşbəxt Heyvanlar" layihəsinin tərəfdaşlarından biridir. Layihəni uğurla İsveç Kənd Təsərrüfatı Elmləri Universiteti qazanmışdır. Layihənin məqsədi makro-regional səviyyədə təcrübə mübadiləsini, təcrübələrin, metodologiyanın və beynəlmiləlləşdirmə potensialının ali təhsil və elmi tədqiqat çərçivəsində birgə inkişafını gücləndirməkdir

Tərəfdaş təşkilatlar Baltik regionu ölkələrindən (Latviya, Litva və Estoniya), həmçinin Ukrayna və Azərbaycandandır:

• İsveç Kənd Təsərrüfatı Elmləri Universiteti;
• Litva Səhiyyə Elmləri Universiteti;
• Estoniya Həyat Elmləri Universiteti;
• Latviya Kənd Təsərrüfatı Universiteti;
• Ukrayna Milli Həyat və Ətraf Mühit Elmləri Universiteti, Kiyev;
• Poltava Dövlət Aqrar Akademiyası, Poltava, Ukrayna;
• Xəzər Universiteti, Bakı, Azərbaycan.

Bu, kiçik bir layihədir (təxminən 1,5 illik). Layihə çərçivəsində tərəfdaş ölkələrdəki mövcud vəziyyət, heyvanların rifahının vacibliyi ilə bağlı fermerlərin və istehlakçıların fikirlərini öyrənmək, əsas problemləri müəyyən etmək və heyvanların rifahının iqtisadi təsirini qiymətləndirmək, nəticələri izləmək, gələcək fəaliyyətləri müəyyən etmək və "Avropa üfüqü" proqramı çərçivəsində layihə təklif etmək planlaşdırılır. Layihəyə rəsmi olaraq sentyabrın 21-də start verilib. 2021-ci ilin sentyabrında Uppsala şəhərində başlanğıc görüşü planlaşdırılırmışdı, lakin davam edən Covid məhdudiyyətləri səbəbindən baş tutmamışdı. İlk görüş 2021-ci ilin oktyabrında onlayn (zoom vasitəsilə) keçirilmişdi. Növbəti görüş İsveç Kənd Təsərrüfatı Elmləri Universitetində olacaq.

HAnimSPAC) funded by the SI funding program on the "Academic collaboration in the Baltic Sea region", offering funding to Swedish universities, for projects with their partners in a number of countries, among them Azerbaijan. Swedish University of Agricultural Sciences successfully applied for the funding. The aim is to strengthen the macro-regional experience-sharing and joint development of practices, methodology, and capacity for internationalization within higher education and research.

Partner organizations are from countries in the Baltic region (Latvia, Lithuania, and Estonia), as well as Ukraine and Azerbaijan:

• Swedish University of Agricultural Sciences
• Lithuanian University of Health Science
• Estonian University of Life Science
• Latvia University of Agriculture
• The National University of Life and Environmental Sciences of Ukraine, Kyiv;
• Poltava State Agrarian Academy, Poltava, Ukraine
• Khazar University, Baku, Azerbaijan

This is a small project (for about 1.5 years) to study the current situation in partners' countries, opinions of farmers and consumers regarding the importance of animal welfare, identify major issues and evaluate the economic impact of animal welfare, organizing both a physical and an online symposium to follow up on the results, identifying further actions and preparing an outline for a proposal for a project within the EU framework program Horizon Europe. The project officially started on 21 September. A kick-off meeting was planned for September 2021 in Uppsala, but it didn't happen due to ongoing Covid restrictions. The first meeting took place online (via zoom) in October 2021. The next meeting will take place at the Swedish University of Agricultural Sciences.



## XƏZƏR UNİVERSİTETİNİN TÜRKİYƏNİN BİLECİK ŞEYH EDEBALİ UNİVERSİTETİ İLƏ GÖRÜŞÜ



Avqustun 30-da Türkiyənin Bilecik Şeyh Edebali Universiteti ilə görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik, Hamlet İsaxanlı, rektor İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Magistratura, doktorantura və elmi işlər üzrə bölmənin rəhbəri Səidə Şərifova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əlimərdanova, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və Beynəxalq əlaqələr üzrə koordinatorlar Arzu Bədəlova və Hüseyn Əliyev, qarşı tərəfdən isə Bilecik Şeyh Edebali Universitetinin rektoru Prof. Dr. Şükrü Beydemir, Baş katib Özgür Özcan, Beynəlxalq əlaqələr üzrə koordinator Murat Ağırman iştirak etmişlər.

Görüşdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə dair müqavilə imzalanmış və təhsil müəssisələri arasında tərəfdaşlıq və akademik əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılmışdır. İmzalanma mərasimin sonunda hər iki tərəf bir-birinə hədiyyə təqdim etdi.

Qonaqlar Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunda da olmuşlar.

## MEETING OF KHAZAR UNIVERSITY WITH TÜRKİYE'S BILECIK SHEIKH EDEBALI UNIVERSITY



A meeting was held with Bilecik Sheikh Edebali University of Türkiye on August 30,

The meeting was attended by professor, akademik Hamlet Isakhanli, Chairman of the Board of Directors and Trustees of Khazar University, Rector Irada Khalilova, Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs, Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Vlad Vernygora, Vice-Rector for International Relations, Alovsat Amirbeyli, Director of Public Relations and Media, Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences, Saida Sharifova, Head of Division of Graduate Studies and Research, Fakhranda Alimardanova, Dean of the School of Science and Engineering, Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business, Jeyhun Mammadov, Dean of the School of Economics and Management and International Relations coordinators Arzu Badalova and Huseyn Aliyev, Rector of Bilecik Sheikh Edebali University Prof. Dr. Şükrü Beydemir, General Secretary Özgür Özcan, International Relations Coordinator Murat Ağırman.

At the meeting, an agreement on strengthening bilateral relations was signed and discussions were held in the direction of strengthening partnership and academic relations between educational institutions. At the end of the signing ceremony, both sides presented each other with gifts.

The guests were at Mevlana Literature - Philosophy Research Institute as well.

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ TÜRKİYƏ SƏFİRİ İLƏ GÖRÜŞÜ

# MEETING OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI WITH THE AMBASSADOR OF TÜRKIYE

2022-ci il avqustun 31-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Doç. Dr. Cahit Bağcı ilə görüşdü. Görüşdə Azərbaycan Musiqi Akademiyasının professoru bəstəkar Ceyhun Allahverdiyev də iştirak etdi.

Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası arasında elmi-mədəni əlaqələrin inkişaf etdirilməsi məsələsi müzakirə edildi. Xüsusi halda, librettosu Hamlet İsaxanlıya və musiqisi Ceyhun Allahverdiyevə məxsus olan "Tac Mahal" baletinin tamaşası barədə söhbət oldu.

On August 31, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli met with the Extraordinary and Plenipotentiary Ambassador of Türkiye to Azerbaijan, Associate Professor Dr. Cahit Bagci. Composer Jeyhun Allahverdiyev, professor of the Azerbaijan Academy of Music, also participated in the meeting.

The issue of developing scientific and cultural relations between the Republic of Türkiye and the Republic of Azerbaijan was covered in the meeting.

There was a discussion about the staging of the ballet "Taj Mahal", with the libretto by Hamlet Isakhanlı and the music by Jeyhun Allahverdiev.

# TƏHSİL EKSPERTİ: "YALNIZ XƏZƏR UNİVERSİTETİ YÜKSƏK KEYFİYYƏTLİ TƏHSİL VERMƏYİ BACARIR"

azedu
AZƏRBAYCAN TƏHSİL PORTALI

# EDUCATION EXPERT: "ONLY KHAZAR UNIVERSITY CAN PROVIDE HIGH-QUALITY EDUCATION"

2022-ci il sentyabrın 19-da *AzEdu.az-a* müsahibə verən təhsil eksperti Nabatəli Qulamoğlu qeyd edib ki, "özəl universitetlərin verdiyi təhsilin keyfiyyəti çox aşağıdır. Bu gün ölkəmizdə özəl ali təhsil müəssisələri arasında yalnız Xəzər Universiteti yüksək keyfiyyətli təhsil verməyi bacarır. Digər özəl universitetlərin çoxu isə yalnız oliqarxların əlində cəmlənib. Burada əsas məqsəd təhsil deyil, gəlir əldə etməkdir".

Ekspert əlavə edib ki, "hər özəl təhsisatın məqsədi müəyyən qədər gəlir qazanmaqdır, amma burada vacib məqamlardan biri gəliri qanuni yolla mənimsəməkdir. Əgər bir iş görülürsə, onun müqabilində gəlir əldə etmək lazımdır. Bunu heç kim qadağan etmir. Amma təhsil pula və gəlirə qurban verilirsə, burada inkişafdan söhbət gedə bilməz".

Ölkənin özəl universitetlərindən Xəzər Universitetinin öz reytinqinə görə dünya ali təhsil müəssisələri arasında yer tutduğunu bildirən ekspert sonda qeyd edib ki, "dövlət universitetlərində təhsil ödənişsizdir, amma onu da qeyd etmək lazımdır ki, tələbələrin bir çoxu BDU əvəzinə Xəzər Universitetini seçir. Bu da ali məktəbin özünü təqdim etmə mexanizmindən asılıdır".

Education expert Nabatali Gulamoglu, who gave an interview to AzEdu.az on September 19, 2022, noted that "the quality of education provided by private universities is very low. Today, among the private higher education institutions in our country, only Khazar University is able to provide high-quality education. Most of the other private universities are only in the hands of the oligarchs. The main goal here is not education, but income."

The expert added that "the purpose of every private allocation is to earn a certain amount of income, but one of the important points here is to appropriate the income in a legal way. If a job is done, it is necessary to earn income in return. Nobody forbids it. But if education is sacrificed for money and income, here development is out of the question."

Stating that among the country's private universities, Khazar University ranks among the world's higher education institutions according to its ranking, the expert finally emphasized that "education in state universities is free, but it should also be noted that many students choose Khazar University instead of BSU. This also depends on the mechanism of the university's self-presentation."

***https://azedu.az/az/news/59312-ozel-universitetlerimiz-kadr-hazirlamir-ozlerini-hormetden-salmaqla-mesguldurlar-sert-tenqid***




## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ *"МОЙ КАРАБАХ ИЛИ КАРАБАХСКИЙ УЗЕЛ"* KİTABI ÇAPDAN ÇIXIB

Professor, akademik Hamlet İsaxanlının *"Мой Карабах или Карабахский узел"* ("Mənim Qarabağım və ya Qarabağ düyünü") kitabı Xəzər Universitetinin Nəşriyyatında çapdan çıxıb.

Milana Abbasova, coordinator and acting head of the department, opened the meeting with congratulatory words on the occasion of the new academic year, then gave the floor to the teaching staff. Huseynaga Rzayev, who many years later continued to cooperate with the Khazar University and now works as a professor at the department spoke at the meeting.

The department's plans for the new academic year, updates on classes and other current issues were discussed at the meeting.

# "XƏZƏR"Ə TƏŞƏKKÜR
# LETTER OF THANKS

## "GƏLƏCƏYİNİ QUR!" GƏNCLİYƏ DƏSTƏK LAYİHƏSİ

## BUILD YOUR FUTURE MMC

**Xəzər Universitetinin təsisçisi,**
**Direktorlar və Qəyyumlar Şurasının sədri**
**Professor Hamlet İsaxanlıya**

Hörmətli Hamlet müəllim,

Sizi "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi adından salamlayır, yeni 2022-2023-cü tədris ilinin başlanması münasibətilə təbrik edirəm.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, layihəmizin 2021-2022-ci tədris ili uğurla tamamlanmışdır. Layihədə Bakı və beş regiondan (Ağdaş, Hacıqabul, Kürdəmir, Ucar, Yevlax) iştirak edən 156 gənc tələbə adını qazanmışdır. Bu gənclərdən 16 nəfəri Xəzər Universitetini seçmişdir. Xəzər Universitetinə qəbul olmuş Layihə məzunlarının siyahısını bu məktuba əlavə edirəm.

Böyük sevinclə Sizə daha xoş bir xəbəri çatdırıram. Layihəmizin cari qəbul nəticələri arasında ən yüksək – 662.1 bal toplamış Ehsani Məsumə də Xəzər Universitetini seçmişdir. Məsumə çalışqan, məsuliyyətli, öz üzərində işləyən və təhsilə çox böyük həvəsi olan gəncdir. Layihə iştirakçısı kimi Məsumə dərslərdə həvəs və əzmlə çalışırdı, Layihənin bütün tədbir və fəaliyyətlərində iştirak edirdi. Əminəm ki, tələbə kimi də Məsumə əzmkarlıq və çalışqanlığı ilə seçiləcək, seçdiyi kömpüter elmləri sahəsində uğur qazanacaqdır.

Qeyd etmək istərdim ki, Layihəmizin cari 2022-2023-cü tədris ilində dərslər artıq başladı, çox yaxın zamanda Layihəmizin tədbirlərinə də start verəcəyik. Xatırlayacağınız kimi, Layihəmizin keçən ilinin ilk tədbiri məhz Xəzər Universitetində baş tutmuşdu. 19 dekabr 2021-ci il tarixində keçirilmiş, elm və məsuliyyət dəyərlərinə həsr olunmuş tədbirimizdə Siz də spiker kimi çıxış etmişdiniz, gənclərlə öz təcrübənizi paylaşıb, dəyərli məsləhətlərinizi vermişdiniz. Ümid edirik ki, Layihəmizin yeni, sayca 9-cu ilinin iştirakçıları olan abituriyentlər üçün tədbirlərimizdən birini Xəzər Universitetində təşkil edərək, gəncləri universitetlə tanış etməklə yanaşı, onlara məqsədlərinə çatmaq üçün motivasiya verəcəyik.

Dəstəyinizə görə əvvəlcədən minnətdarlığımızı bildiririk və yeni tədris ilində Sizə və Xəzər Universitetinin bütün əməkdaş və müəllimlərinə yeni nailiyyətlər arzu edirik.

**Bəhruz Hidayətzadə**
*"Gələcəyini Qur!" GDL-nin həmtəsisçisi,*
*"Build Your Future" MMC-nin direktoru*

*16 sentyabr 2022-ci il*

**"Gələcəyini Qur!" GDL-nin həmtəsisçisi,**
**"Build Your Future" MMC-nin direktoru**
**Bəhruz Hidayətzadəyə**

Hörmətli Bəhruz müəllim,
"Gələcəyini qur!" layihəsinin növbəti uğurları mübarək olsun!
Sizi və uğur qazanan tələbələrimizi təbrik edirəm!

*Hörmətlə,*
**Hamlet İsaxanlı**
*17 sentyabr 2022-ci il*

# MƏKTUBU
# TO KHAZAR UNIVERSITY

**"BUILD YOUR FUTURE!" YOUTH SUPPORT PROJECT**

**BUILD YOUR FUTURE MMC**

**To Professor Hamlet Isakhanli,Founder and
Chairman of Khazar University's
Board of Directors, and Trustees**

Dear Hamlet Isakhanli,

I congratulate you on the start of the new 2022-2023 academic year on behalf of the "Build your future!" Youth Support Project.

I would like to note with satisfaction that the 2021-2022 academic year of our project has been successfully completed. 156 young participating in the project from Baku and five regions (Aghdash, Hajigabul, Kurdamir, Ujar, Yevlakh) have become students. 16 of these young people chose Khazar University. I am attaching the list of Project graduates admitted to Khazar University to this letter.

It is with great pleasure that I bring you another good news. Among the current admission results of our project, Ehsani Masuma, who scored the highest - 662.1 points, also chose Khazar University. Masuma is a hard-working, responsible, self-motivated young with a great passion for education. As a project participant, Masuma worked enthusiastically and diligently in classes, participated in all events and activities of the project. I am sure that as a student, Masuma will be distinguished by her perseverance and hard work and will succeed in her chosen field of computer science.

I would like to note that classes have already started in the current 2022-2023 academic year of our project, and we will start the activities of our project very soon. As you may remember, the first event of our project last year was held at Khazar University. At our event dedicated to the values of science and responsibility held on December 19, 2021, you also spoke as a speaker, shared your experience with young people, and gave valuable advice. We hope that we will organize one of our events at Khazar University for the participants of the new, 9th year of our Project, introduce young people to the university, and motivate them to achieve their goals.

We express our gratitude in advance for your support and wish you and all staff and faculty members of Khazar University new achievements in the new academic year.

**Bahruz Hidayatzade**
*Co-founder of "Build your future!" Youth Support Project,*
*Director of "Build Your Future" LLC*

*September 16, 2022*

**To Bahruz Hidayatzade
Co-founder of "Build your future!" Youth Support Project
Director of "Build Your Future" LLC**

Dear Mr. Bahruz,
Congratulations on the next success of the project "Build your future!"!
I congratulate you and our successful students!

*Sincerely,*
**Hamlet Isaxanli**
*September 17, 2022*

**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**



# "KİTABİ-DƏDƏ QORQUD" PAKİSTANDA URDU DİLİNDƏ ÇAPA HAZIRLANIR

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Pakistan Ədəbiyyat Akademiyası arasında qarşılıqlı əməkdaşlıq əlaqələri konkret layihələr üzrə uğurla davam etdirilir. Pakistan Ədəbiyyat Akademiyasının Prezidenti, professor Yusif Huşkun bu ilin iyul ayında Azərbaycana səfəri çərçivəsində AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli ilə aparılan danışıqlar zamanı Azərbaycan xalqının ədəbi-mədəni pasportu olan "Kitabi-Dədə Qorqud" eposunun Pakistanda urdu dilində nəşr edilməsi qərara alınıb.

"Kitabi-Dədə Qorqud"un urdu dilində nəşri Pakistan Ədəbiyyat Akademiyasının Prezidenti, professor Yusif Huşkun ön sözü ilə açılacaq. Eposun urdu dilində nəşri üçün akademik İsa Həbibbəyli "Azərbaycan xalqının Ata kitabı" adlı geniş məqalə yazıb.

"Kitabi-Dədə Qorqud" eposu urdu dilinə Pakistan Ədəbiyyat Akademiyasının əməkdaşları tərəfindən tərcümə olunub. Eposun bu ilin oktyabr ayında Azərbaycanda dövlət müstəqilliyinin bərpası gününə qədər İslamabadda çapdan çıxması nəzərdə tutulur.

Məlumat üçün bildiririk ki, "Kitabi-Dədə Qorqud" eposu 2021-ci ildə akademik İsa Həbibbəylinin geniş müqəddiməsi ilə İtalyanın "Sondro Tevi" nəşriyyatı tərəfindən nəşr olunmuşdur.

# "NİZAMİ GƏNCƏVİ İRSİNİN TƏDQİQİ YENİ MƏRHƏLƏDƏ" MÖVZUSUNDA MÜZAKİRƏ

Ədəbiyyat İnstitutunda "Nizami Gəncəvi irsinin tədqiqi yeni mərhələdə" mövzusunda müzakirə keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli bildirib ki, "Nizami Gəncəvi İli"ndə Akademiyanın Humanitar və İctimai Elmlər Bölmələrinin elmi-tədqiqat institutlarının əməkdaşları tərəfindən dünyanın 22 ölkəsində 16 dildə dahi şair və mütəfəkkirə aid 46 monoqrafik kitabın və yüzdən çox məqalənin çap edilməsi, xarici ölkə alimlərinin iştirakı ilə bir sıra beynəlxalq elmi konfransların keçirilməsi mühüm elmi nəticə kimi qiymətləndirilib.



Eyni zamanda, institutun nizamişünaslıq şöbəsinin fəaliyyəti də yüksək qiymətləndirilib. AMEA-nın müxbir üzvü Nüşabə Araslının rəhbərliyi ilə çap olunan 960 səhifədən ibarət olan "Nizami Gəncəvi. Həyatı və yaradıcılığı" adlı kollektiv monoqrafiya nizamişünaslığın yeni mərhələsinin ən mühüm nailiyyəti kimi dəyərləndirilib.

Bunlarla bərabər, qeyd edilib ki, Nizami Gəncəvi yaradıcılığının tədqiqi sonrakı illərdə də davam etdirilməlidir.

Müzakirələr zamanı Ədəbiyyat İnstitutunun elmi potensialı və "Nizamişünaslıq şöbəsinin imkanları nəzərə alınmaqla qarşıdakı illərdə 2 cildlik "Nizami Gəncəvi ensiklopediyası"nın hazırlanması əhəmiyyətli hesab edilib. Qeyd edək ki, bu ensiklopediyanın sözlüyü hazırlanaraq müzakirələrdən keçirilmiş, müəlliflər heyəti müəyyən edilmiş, tədqiqat işinə 2022-ci ilin əvvəllərindən etibarən başlanılmışdır.

Bundan başqa, İnstitutda dünyanın müxtəlif ölkələrində böyük Azərbaycan şairi və mütəfəkkiri haqqında çap edilmiş məqalələrdən ibarət "Nizami Gəncəvi dünya ədəbiyyatşünaslığında" adlı kitabın hazırlanıb nəşr edilməsi, "Nizami Gəncəvi və dünya ədəbiyyatı" adlı kollektiv monoqrafiyanın yazılması, "Nizami Gəncəvi yaradıcılığında azərbaycançılıq", "Nizami Gəncəvinin soykökü və nəsil şəcərəsi" mövzularında tədqiqatların aparılması, "Xəmsə"nin sovet dövründə Azərbaycan dilinə edilmiş filoloji tərcümələrinin yeni redaktədə nəşrə hazırlanması, beynəlxalq və respublika elmi konfransların keçirilməsi də məqsədəuyğun hesab edilib.

Müzakirələrdə İnstitutun əməkdaşlarından professor İmamverdi Həmidov, filologiya elmləri doktorlarından Fəridə Əzizova, Almaz Ülvi Binnətova, filologiya üzrə fəlsəfə doktorları Zəhra Allahverdiyeva, Təhmînə Bədəlova, elmi işçi Hürnisə Bəşirova və başqaları çıxış etmiş, təkliflərini bildirmişlər.

**Gülnar Səma**

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# NİZAMİ GƏNCƏVİ. KİMLİYİ VƏ İDEYALAR ALƏMİ

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 419-cu (iyul 2022-ci il) nömrəsində*

## Nizami`nin elmi-fəlsəfi kimliyi

"Xəmsə" başdan-ayağa fəlsəfə və musiqi, psixologiya və din, coğrafiya və tarix, incəsənət və şahmat, hesab və həndəsə, əlkimya, biologiya və tibb, astronomiya və fizika ideya və anlayışları ilə doludur. Nizami`ni təbiətşünas alim kimi təqdim etmək dəbdədir – ən azı Azərbaycanda. Nizami`ni oxuyub öyrənən bəzi müəlliflər sübut etməyə çalışmışlar ki, "Nizami nəinki öz dövründəki, hətta özündən sonra gələn alimləri (o cümlədən, elmdə inqilabi kəşflər edən böyük elm adamlarını) qabaqlamışdır". Belə fikirlər, yumşaq ifadə etsəm, yanlış və əsassızdır. Nizami nə hansısa elm sahəsini inkişaf etdirən və elmi yenilik edən alimdir, nə də peşəkar filosof. Nizami elm və fəlsəfə barədə çox oxuyub geniş bilik toplayan, elm, incəsənət və fəlsəfəni duyan, sevən mütəfəkkir şairdir. Nizami özü gözəl ifadə edir:

> *"Hər bir elmdən mən ziya almışam"*. ("Şərəfnamə", 428)
> *Bir gecə də olsun mən yatağa rahat girmədim*
> *Elmin yeni bir qapısını açmadan.* ("Şərəfnamə", 464)

Nizami`nin poemalarında hökmdar və sərkərdələrlə, eşqə əsir düşən qəhrəmanlarla, gözəl və cəsur qadınlarla yanaşı, yaradıcı sənətkarlar – rəssam, memar, mühəndis, musiqiçilər böyük yer tuturlar. Nizami "Xəmsə"də bir çox alim və filosoflara geniş yer verir, "Hər uca rütbədən / Alimin rütbəsi daha ucadır" ("İqbalnamə", 367) deyir.

Nizami elmi mühakiməni, irəli sürülən fikrin dəlillərlə sübutunu yüksək qiymətləndirir:

> *Dəlili güclü olan hər bir bəyanı*
> *Dinləməmək bədbəxtlikdir.* ("İqbalnamə", 991)

Və ya

> *Düşüncə ilə gəlməyən söz*
> *Yazmağa, deməyə layiq olmaz.* ("Xosrov və Şirin", 433)

Gənc Nizami "Sirlər xəzinəsi"ndə şair sözü üçün elmi düşüncənin zəruriliyini vurğulamışdı:



Nizami Gəncəvi

*Bayrağını elmdən kənarda ucaltmış hər sözün, –*
*Bu söz mənim özüm də olsam, – üstündən qələm çək.* (2227)

Onu da deyim ki, elmi düşüncənin şeir üçün mühüm olduğunu qeyd edərkən, daha çox Məhəmməd Füzuli`nin Azərbaycan türkcəsində yazdığı "Divan"ın dibaçəsindəki beyti yada salırlar[18] :

*Elmsiz şeir əsassız divar olur,*
*Əsassız divar qayətdə bietibar olur.*

Nizami elmin məhdudluğunu da anlayır və incə fəlsəfi bir məqamı vurğulayır–dünyanın necə meydana gəldiyi sirdir, o sirri açmaq mümkün deyil, əks halda bəlkə biz də dünya yarada bilərdik:

*Bütün ağıllılar, vurğunlar aciz qalıblar ki,*
*Bu dünya necə meydana gəlmişdir?*
*Əgər bir kəs dünyanın necə yarandığını bilsə,*
*Mümkündür ki, o da elə bir işi görməyi bacarsın.*
*Madam ki, dünyanı yaratmaq bizə mümkün deyil,*
*Onun necəliyi də təsəvvürümüz xaricindədir...*
("Leyli və Məcnun", "Hikmət və mövizə haqqında", 40-42)

* * *

Nizami elm, fəlsəfə və sənətə xas olan anlayışlardan ustalıqla istifadə edir, həyat barədə fəlsəfi düşüncələrə dalır, obrazlı ifadə və gözəl metaforlar yaradır. Nizami elmi poeziyanın, poetik hikmətin görkəmli nümayəndəsidir, zənnimcə, bu işdə onun tayı-bərabəri yoxdur. Nizami "Xəmsə"sinin az qala hər səhifəsində orijinal elmi düşüncənin təzahürünü görmək mümkündür. Sevdiyim "Xosrov və Şirin"dən bir neçə nümunə göstərməklə kifayətlənirəm.

Şair öz əsərlərini, "canı ilə bəslədiyi gəlini" yüksək qiymətləndirir, qara mürəkkəblə yazılmış şeir gözü işıqlandırır, onun musiqisi, mahnısı isə nəşə verir:

*Canımla bəslədiyim gəlini*
*Dünyada üzü ağ et.* (6)
*Qarası gözü işıqlandırsın*
*Avazla oxuması beyinə nəşə versin.* (8)

O, öz istedadı ilə ilahi əsərlər yaratdığını fələyin başından tük qırxmağa (istedadı - xəncər dili ilə!) bənzədir:

*Sən xəncər dilinlə fələyin başından*
*Mənaların baş tükünü qırxmışsan.* (188)

Nizami riyazi anlayışlardan ustalıqla istifadə edir, o cümlədən xətt, səth və cisim kimi həndəsi kəmiyyətlərdən; onların uyğun olaraq bir ölçülü, iki ölçülü və üç ölçülü olduğunu

[18] Füzuli M. 2005. Əsərləri 6 cilddə, 1-ci cild. Bakı: Şərq-Qərb. səh. 29

deyir. Şair pərgar anlayışına çox müraciət edir, "gəl-get"lə, "mənzil kəsmək"lə məşğul olan, "tərpənən" ulduzları, bütləri "Pərgar kimi sərgərdan" adlandırır. (64)

Bu istedad sahibinin "Duadan başqa bir kəslə sazişi yoxdur", "quru çörəklə oruc tutur", amma dili şirindir, üstəlik, qənaətlə yaşayır, böyük zəhmət və ehtirasla təkliyə çəkilib, yazıb-yaradır; bütün bunları o, gözəl metaforlar vasitəsilə təqdim edir:

*Zahidlik ağzım quru hovuz olsa da,*
*Şirin dilim dirilik suyudur.*
*Müşk kimi göbəkdə gizləndim*
*Simurq kimi təkliyə adət etmişəm.* (334-5)

*İpək qurdu kimi mən öz işimlə*
*Bir yarpaq yesəm, ipək bağışlaram.* (5930)
*Zəhmət çəkməkdə əsil torpağam*
*Ki, bir arpadan bir çox xəzinə yetirirəm.*
*Əvvəlcə bir ovuc dən yesəm də*
*Biçində bir xırman əvəz verirəm.* (5933-4)

Və yaratdığı qeyri-adi əsərinə "nəvaziş göstərilməsini", səxavətlə qiymət verilməsini arzu edir (Günəş qaranlığa nur saçan kimi, bulud göyərtiyə süd verən kimi):

*Əgər ona bizdən bir xırman çatsa*
*Vallah bizdən bir arpa əksilməz.* (234)
*Günəşin evi ondan ötrü abad oldu ki,*
*Aləmin qaranlıqda qalanlarına nur verir.*
*Dünyanı buludun səxavəti ona görə tutdu ki,*
*Göyərtiyə uşaqlıqda süd verər.* (236-7)

* * *

Xosrov və Şirinin bir-birinə sevgisini, onların kef məclisini böyük məharətlə vəsf edən şair Şirinin sevgi izhar etməsi ilə özünü qoruması arasındakı ziddiyyəti göstərmək üçün maraqlı məcazi dilə müraciət edir:

*Sonra əqiqini almaza sürtürdü*
*Zümrüdü əfi kimi qoruyurdu.* (1993)

Burada əqiq – dodaq, almaz isə dişi bildirir, yəni, Şirin Xosrova tam tabe olmamaq, özünü ələ almaq üçün dodağını dişinə sürtürdü, dodağını dişləyirdi. Əfi – saçı, zümrüd isə gözü bildirir, yəni, Şirin gözünü saçı ilə örtürdü, el inancına görə əfi zümrüdə baxanda gözləri kor olur.

Əlkimya mövzusu Nizami yaradıcılığında mühüm yer tutur. O, bir tərəfdən məşhurların əlkimya məharəti və əlkimya fırıldaqları barədə rəvayətlər söyləyir, digər tərəfdən çox ustalıqla əlkimya vasitəsilə güclü metaforlar yaradır[19, 20, 21].

[19] İsaxanlı H. 2018. Əlkimya: elm, sənət və mistika. Bakı: Xəzər Universiteti Nəşriyyatı

[20] İsaxanlı H. 2020. Alchemy in Eastern Literature. Khazar Journal of Humanities and Social Sciences. Volume 23, Number 1. səh. 22-47

[21] Heybullayeva R. və Ruymbeke C. (red.) 2020. Nizami on Alchemy. Book Chapter in "The Interpretation of Nizami's Cultural Heritage in the Contemporary Period. Berlin: Peter Lang. səh. 215-233

Nizami sevgili qızın öz qoca yarından qaçmasını obrazlı şəkildə civənin iki səciyyəvi xassəsinə – ağımtıl-çal rənginə və hərəkətcil olmasına bənzədir:

*Bir cavan bir qocaya dedi: "nə əlac*
*Mən qocalanda yarım məndən qaçacaq".*
*O gözəl söhbətli qoca cavabında dedi:*
*"Qocalıqda sən özün yardan qaçacaqsan*
*O başa ki, fələk civə yağdırar*
*Gümüş bədənli gözəldən civə kimi qaçar".* (5202-5)

Nizami, təvazökarlığı yüksək qiymətləndirir, özünü də "yaşadıqca aşağıda olmağa" çağırır və bunun insanı yüksəltdiyini irəli sürür. Bunun poetik ifadəsi maraqlıdır: "dürr məhz dənizin dibindən çıxır, tum məhz yerə səpilərək məhsula dönür, sünbülün başını çox qaldırması isə onun əyilib ayaqdan düşməsinə səbəb olur" kimi poetik ifadəsini verir:

*Dürrü görmürsənmi, dənizi sevib*
*Aşağı düşdüyü üçün necə yüksəyə qalxdı?*
*Tum kimi yerə düşsən, ucalarsan*
*Sünbül kimi başını qaldırma, ayaqdan düşərsən.* (5866-7)

Nizami poetik sözün mürəkkəb təbiətindən söhbət açır, poeziya gah ağladır, gah da güldürür, sanki dürr səpir, amma şairin həyatında şirin və acı, şəkər və zəhər yan-yanadır. Şair hörmət-izzətlə yanaşı, öz ünvanına söyüş də eşidir:

*Bir qulağımla acı sözləri içirəm,*
*o biri qulağıma sırğa salıram.* (5957)
*Şəkər verib zəhər almaq lazım gəlir,*
*Hər incə sözə bir söyüş eşitmək lazım gəlir.*
*Mən dərya kimi ətəyimdən dürr tökürəm*
*Yaxam isə tənə daşları ilə doludur.*(5960-2)
*Dilimdə xalqın ağzı şirindir*
*(Öz) ağzım isə öldürücü zəhər kimi acıdır.*(5964)

Şair həyatın hər iki üzü ilə tanışdır, poeziyası bu ikili həyatı əks etdirir:

*Nizami xəlvətdə əyləşən bir dorğadır*
*Yarısı sirkə, yarısı baldır.* (332)

Eyni fikri bildirən aşağıdakı məşhur beyti farsca orijinalı ilə birlikdə gətirirəm:

*Gerami ekdeş-əst in nəqş-e dəmsaz*
*Pedər hendu-vo-madər tork-e tənnaz.*
*(Bu munis nəqş mələz (ekdeş!) bir gözəldir*
*Atası hindu, anası nazəndə türkdür).* (5970)

## Yaradıcı sələflərdən bəhrələnən yenilikçi şair

Şair olsun ya hər hansı yaradıcı şəxs – o, özündən əvvəl yaşayıb-yaratmış həmkarlarından öyrənir, onların düzüb-qoşduğu ideya və üsulları mənimsəyir, onların yaradıcılığından bəhrələnir.

"Xəmsə"yə daxil olan ilk əsəri – "Sirlər xəzinəsi"ndə Nizami Qəznəli Əbülməcid Sənai`nin (?1080-?1141) izi ilə getmiş, onun "Hədiqət-ül-həqaiq" (Həqiqət bağı) adlı sufiyanə əsərindən ilham almış, eyni zamanda öz əsərini ("sikkə"sini) daha yüksək qiymətləndirmişdir:

*O, öz bayrağını Qəznədə qaldırdı,*
*Bu isə rəqəmini Rum sikkəsinə vurdu.*
*O sikkədəki sözlər qızıla bərabər olsa da*
*Mənim qızılımın sikkəsi ondan yaxşıdır.* (403-4)

O dövrdə fəaliyyət göstərən şairlərin böyük əksəriyyəti kimi Sənai də poetik yaradıcılığa mədhiyyə ilə başlamış, Qəznəvilərin saray şairi olmuşdu. Sonra o, sufiyanə həyata üstünlük vermiş, yaradıcılığı da bu istiqamətə dönmüşdü. Daha sonra Qəznə Səlcuq hökmdarı Bəhram şah Sənai`ni saraya dəvət etmiş, lakin Sənai imtina etmişdi. Sənai minnətdarlıq əlaməti olaraq Bəhram şahı vəsf edən şeirlər yazmış və ən başlıcası, 1131-ci ildə tamamladığı "Hədiqət-ül-həqaiq" adlı didaktik məsnəvisini ona həsr etmişdi. Bu əsərlə Sənai böyük sufi poeziyasının əsasını qoydu – belə demək mümkündür. Sistemsiz, amma ensiklopedik səciyyəli bu əsəri, "Sufizmin ensiklopediyası" kimi tanınmış bu kitabı müəllif özü "Fars Quranı" adlandırmışdı. Sənai`də sufilik, Nizami`də sosial yönümlü didaktika üstün olsa da, birinci sosial həyata, ikinci sufi baxışlara etinasız olmamışdır. Onu da qeyd edim ki, Nizami "Sirlər xəzinəsi"ni Ərzincan hökmdarı Bəhram şaha ithaf etmişdi; Qəznə bayrağı və ya Qəznə və Rum sikkələri ifadələri bu iki Bəhrama ithafı nəzərdə tutur. Nizamişünasların çoxu "Sirlər xəzinəsi"ni "Hədiqət-ül-həqaiq"dən üstün sayır, sufişünaslar isə "Hədiqət-ül-həqaiq"i yüksək qiymətləndirməkdə davam edirlər.

Bəzi ədəbiyyatşünaslar Nizami`nin "Xosrov və Şirin" poemasını yazarkən 11-ci əsr fars şairi Fəxrəddin Qurqani`nin (Gurgani`nin) "Vis və Ramin" əsərinin təsirinə məruz qaldığını irəli sürmüşlər. Bunun əksini deyənlər də çoxdur. Tam əminliklə "hə" və ya "yox" demək çətindir. Hansısa bənzərlik bir təsir nəticəsi də ola bilər, sonrakı yaradıcı şəxsin öz tapıntısı da. "Vis və Ramin" çox yayılmamış, az sayda nüsxəsi qalmışdır. Hər iki əsər sevgi macəraları üzərində qurulmuş və həzəc bəhrində yazılmışdır.

**Qeyd.** "u" hərfi ilə əruz vəznindəki uzun, "q" ilə qısa hecanı işarə etsək, həzəc vəzni uqqq-uqqq-uqq ardıcıllığına deyilir.

Bunlarla yanaşı, ideya, məzmun və bədii cəhətdən "Xosrov və Şirin" fərqlidir, "Vis və Ramin"dən çox yüksəkdə durur.

Nizami istifadə etdiyi hər şair və hər əsərin adını çəkir, müəlliflərə ehtiramını bildirir, öz əsərinin fərqli olduğunu aydın şəkildə deyir və izah edir. Ədəbiyyatda sınanmış və təqdir olunan bu üsula Nizami, elə bil ki, əməl etmişdir. Nizami heç bir əsərində, o cümlədən, "Xosrov və Şirin"də F. Qurqani`dən bəhrələndiyini söyləmir.

* * *

"Şahnamə" müəllifi Firdovsi (935 - 1020) Nizaminin ən çox təsirləndiyi və minnətdar olduğu şairdir. "Xəmsə"yə daxil olan üç poema – "Xosrov və Şirin", "Yeddi gözəl" və "İsgəndərnamə" – mövzu baxımından poeziyada "Xəmsə"dən əvvəl "Şahnamə"də işlənilmişdir. Nizami Firdovsiyə böyük hörmət və ehtiramını bildirsə də, ona pərəstiş etmir, onunla yarışa çıxır, Firdovsinin etmədiklərini və ya edə bilmədiklərini özünün həyata keçirdiyini irəli sürür. Nizami`nin hər üç poeması "Şahnamədə"ki uyğun hissələrdən həcm baxımından xeyli böyükdür. Nizami`yə görə bu böyük "əvvəlki söz ustası" "Şahnamə"də çox şey desə də, xeyli şeyləri deməmişdir:

*Əvvəlki söz ustası, Tuslu hakim ki,*
*Sözün üz-gözünü gəlin kimi bəzəmişdi.*
*Öz naməsində çox söz incilərini o sapa düzdü.*
*Amma xeyli deyiləsi məzmunlar deyilməmiş qaldı.* ("Şərəfnamə", 493-4)



Əbülqasim Firdovsi

Və bu yarımçıqlığın ilkin səbəbi olaraq Firdovsinin alicənablıqla dostlara, bu halda Nizamiyə pay ayırmasını göstərir:

*Bir də ki, o dostları üçün pay ayırdı*
*Axı halvanı təklikdə yemək yaramaz.* ("Şərəfnamə", 497)

Bununla yanaşı, Nizami "Şahnamə" ilə öz əsərləri arasındakı əsl fərqləri göstərməyi unutmur:

*Bilicinin məndən qabaq dediyini demədim*
*Deyilmişi təzədən demək yaxşı deyil.* ("Xosrov və Şirin", 476)

Nizami fərqlər deyəndə ümumi sözlərlə kifayətlənmir, fərqlərin nədən ibarət olduğunu və beləliklə əsaslı olduğunu göstərir. Məsələn, Nizami`nin böyük eşq dastanı şəklində qələmə aldığı bədii cəhətdən çox güclü "Xosrov və Şirin"inin "Şahnamə"dəki "Xosrov və Şirin" hekayəsindən üstünlüyünü Firdovsi`nin yaşa dolması və eşqi layiqincə tərənnüm edə bilməməsi ilə izah edir:

*Çünki yaşı altmışa çatmışdı*
*Cavanlıq yayından oxu düşmüşdü.* (474)

Firdovsi İran tarixinə vurğun tarixçi-şairdir, Nizami isə öz epik-lirik poeziyasında ədalət və ədalətli hökmdar axtarışına çıxır və eşqi tərənnüm edir. "Şahnamə"də "Xosrov və Şirin" adlı hissə, yəni Xosrov və Şirin arasındakı eşq rəvayəti Xosrov Pərvizin hökmdarlıq hekayəsi ilə müqayisədə çox az yer tutur. Firdovsidə əsas mövzu Xosrov`un şahlığıdır, Xosrov baş qəhrəmandır, Nizami`nin bu məhəbbət dastanında isə Şirindir əsərin canı, baş qəhrəmanı.

Nizami, əlbəttə, eyni süjetə əsaslandığına görə "Şahnamə" ilə bənzərlikdən qaça bilməzdi, o, hətta təkrara yol verməli olub, "Yeddi gözəl"də "Şahnamə"nin uyğun hissəsi ilə müqayisədə təkrarın zəruriliyini çox gözəl şəkildə qeyd edir:

*Lakin xəzinəyə yol bir olduğu üçün*
*Oxlar iki olsa da, hədəf bir olduğu üçün.* (1057-8)

Bununla birlikdə, "Yeddi gözəl"də Nizami "Şahnamə"də rast gəlinməyən hadisələrdən söhbət açdığını irəli sürür:

*Bu [kitabın] deyilməmiş yarısını mən dedim*
*Yarımçıq deşilmiş gövhəri axıra qədər deşdim.* (193)

Nizami`nin yenidən müraciət etdiyi "Şahnamə" mövzuları arasında böyük sərkərdə və hökmdar İsgəndərə həsr etdiyi "İsgəndərnamə" – "Xəmsə"yə daxil olan sonuncu poema-roman Firdovsi`nin yanaşmasından köklü şəkildə fərqlidir.

*Bu bir deşilməmiş dürr idi, onu mən deşdim.* ("İqbalnamə", 3625).

Göründüyü kimi, Nizami "Şahnamə"dəki "Yeddi gözəl"i yarımçıq deşilmiş gövhər sayır və öz "Yeddi gözəl"i ilə bu gövhəri axıra qədər deşdiyini bəyan edirdi. Gövhər, dürr bəzək kimi istifadə edilir və bu məqsədlə onu deşmək lazım gəlir, deşilməmiş gövhər, dürr işə yaramır. Nizami "deşilməmiş dürr" ifadəsi ilə Şahnamə"də İsgəndər əhvalatının çox zəif işıqlandırıldığını düşünür və öz böyük "İsgəndərnamə"sini yazaraq, "deşilməmiş dürrü mən deşdim" deyir.

Bəs Nizaminin "İsgəndərnamə"si "Şahnamə"dəki İsgəndər hekayəsindən əsasən nə ilə fərqlənir? Çox şeylə! Bu fərqi yaradan Nizami`nin fəlsəfi, etik və estetik baxışları, tarixi zaman və coğrafi məkan barədə düşüncələridir.

* * *

Firdovsi qədim İranı vəsf edirdi. "Şahnamə" əfsanəvi dövrdən başlamış ərəb islam ordularının İran üzərində qələbəsinə qədər uzanan İran sülalələrinin poetik tarixidir. "Şahnamə"də İran-Turan qarşıdurması və savaşları mühüm yer tutur. İran Nizami yaradıcılığında da böyük yer tutur ("Bütün aləm bədəndir, İran isə ürək" (*"Yeddi gözəl"*, 356). Lakin Nizami İranın əfsanəvi və qəhrəmanlıq dövrlərinə baş vurmur, tarixi dövrə aid iki məşhur hökmdarı – Xosrov Ənuşirvan və Bəhram-Gur`a aid özünə məxsus iki gözəl poema ilə kifayətlənir. Qaldı İsgəndər – "Şahnamə"də İsgəndər İran şahıdır, Dara`nın (3-cü Dara`nın) böyük qardaşıdır. Nizami isə bu yerdə tarixi həqiqətə sadiqliyini nümayiş etdirir: İsgəndər Makedoniyalı`dır. Nizami Makedoniya hökmdarı Feyləqus`un (tarixi 2-ci Filipp`in) adını çəkir:

*Adı Feyləqus, özü şöhrətli şah idi*
*Həm Rum, həm Rus onun fərmanına tabe idi.*
*Onun məskəni Yunanıstanda idi*
*Onun əsl yeri Məqduniya idi.* (820-822)

Burada Nizami`yə xas olan tarixi anaxronizmlərindən biri ortaya çıxır – guya İsgəndərin fərmanında olan Rus, əslində isə ruslar tarix səhnəsinə min ildən də çox sonra çıxmışdılar.

İsgəndər haqqında söhbətə keçərkən, Nizami müxtəlif rəvayətlərin mövcudluğunu, onlardan çoxunun uydurma olduğunu deyir, onları müqayisə edib gəldiyi nəticəni bəyan edir – İsgəndər Feyləqusdan törəmişdir (832-851):

*Hər diyarın rəvayətindən düz olan ancaq budur*
*Ki, şəhriyar Feyləqusdan törəmişdir.* (851).

**Qeyd.** Ərəblər və ərəbcə danışanlar Aleksandr adındakı "Al" birləşməsini müəyyən artikl kimi qəbul etmiş, yerdə qalan "eksandr" ifadəsində "e" təbii olaraq "i" ilə əvəz olunmuş, deyilişdə "k" və "s"-in yerləri dəyişmiş, yazıda "skndr", tələffüzdə isə sərt "dr" birləşməsi yumşalıb "dər" olmuş və nəticədə "Aleksandr" əvəzinə "İskəndər" və ya "İsgəndər" deyilmişdir.

Firdovsi`nin "Şahnamə"si həcmcə bir şəxsin yazdığı ən böyük poema sayılır, "Şahnamə"nin əldə olan mətni təqribən 52 min beytdən ibarətdir. Onun İsgəndərlə bağlı hissəsi nisbətən kiçikdir – 2 min beyti aşmır, bəzi nüsxələrdə daha azdır. Nizaminin "İsgəndərnamə"si isə "Xəmsə"nin həcmcə ən böyük poemasıdır, uzunluğu 10.500 beytə yaxındır.

Nizami öz "İsgəndərnamə"sində "Şahnamə"dəki yanlışları düzəltdiyini deyir:

*Harada ki bir yanlışa rast gəldim*
*Onu həqiqət zivərilə bəzədim.* ("Şərəfnamə", 6781)
*O qocaman bəzəkçi ki, orada*
*Həqiqət sözlərində yanlışlıq etmişdi*
*Ğələt deyilmişləri yenidən tərəzlədim.* (6783-4)

Nizami`yə görə Firdovsi Şahnamə ilə palaz düzəldibsə, o, ipək toxuyub. Üstəlik, Nizami müqayisə üçün əlkimyaya baş vurur. Əlkimyada yolüstü misdən gümüş əldə edilir (bunu Firdovsi edib), son məqsəd isə gümüşü qızıla çevirməkdir:

*Mən palasdan ipək toxumağı bilirəm*
*Söz kimyası ilə iki bəzəkçi (iki tərz)*
*Köhnə naqdləri təzələyiblər –*
*O misdən gümüş düzəldib, saf gümüş*
*Bu isə o gümüşü xalis qızıla çevirir.* ("Yeddi gözəl", 1058-1060)

Nizami və Firdovsi yaradıcılığını müqayisə edərkən, E. Bertels`in bu mövzuda yazdığı maraqlı məqaləsinə müraciət etmək lazımdır[22].

## Nizami və müasirləri

Dövrünün ən böyük şairi olan Nizami öz şairlik qüdrətini dərk edir, hər beş poemasında bu barədə müəyyən şəkildə söz açır. Nizami Gəncədə dustaq olmaqdan qurtarmaq üçün, şöhrətinin dünyaya yayılması üçün gözəl əsər yaratmaq lazım olduğunu bildirir. O, Nizami`ni "söz mülkünün qalibi" ("Xosrov və Şirin", 514), "söz deyənlərin ustadı" (520) adlandıran zövqlü insanların dili ilə özünü zəmanənin ən yaxşı şairi sayır, şöhrətinin çox uzaqlara yayıldığını söyləyir:

*Gəncədə özünü dustaq etməkdən qurtar*
*Şir yüyəni əlindədir, pəncəni aç*
*Atını bayıra səyirt, meydan genişdir.*
*Sən cavansan, bəxtinin də budağı cavandır*
*Zəmanənin gözəl şairi yoxdur*
*Olsa da, sənin kimisi yoxdur.* ("Xosrov və Şirin", 536-8)
*Bu iki-üç [şair] öz çıraqlarının pərvanəsidir*
*Öz evlərində gözə dəyirlər*
*Öz şəhərlərindən iki mənzil uzaqlaşalar*
*Heç birində işıq və rövnəq görməzsən.*
*Sən o işıqlı Günəşə bənzəyirsən ki*
*Şərqdən qərbədək tanınmısan.* (540-2)

Özünü tərifləmək, kim olduğunu anlatmaq, birinci növbədə, hər şairin öz üzərinə düşürdü. Nizami də, bu mənada, istisna deyildi. O, öz dövründə məşhur olmaqla yanaşı, gələcəkdə də seviləcəyinə şübhə etmir:

---

[22] Бертельс Е. Э. 1981. Низами и Фирдоуси. В "Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Bakı: Yazıçı. səh. 127-176

*Şeir mənim arxımdan su içir*
*O, mənim zəmanəmdə şöhrət tapmışdır.* ("Leyli və Məcnun", 10)
*Yadında saxla, şairlər içərisində*
*Dünyada sözün, sənətin yadigarı mənəm.*
*Mənimlə söz binası möhkəmləndi*
*Qiyamətə qədər o qiyamət edəcəkdir.* ("Şərəfnamə", 405-6)
*Bu xeyirxahlığım üçün hər bir diyardan*
*Xeyirxahlardan mənə xeyir-dualar gələr.*
*Bu halətlə əgər köçüb getsəm*
*Alicənab insanların ziarətgahına çevrilərəm.* (421-2)
*Mən elə demişəm ki, heç kəs elə deməyib.* ("İqbalnamə", 335)

* * *

Nizami`nin böyük şairlik iddiası, "aləmin gərdişini və sirlərini bilən mənəm" (Xosrov və Şirin, 5391) kimi fikirləri əsaslıdır. Nizami`nin müasirləri arasında çox tanınmış və ədəbiyyat tarixində böyük yer tutan şair çox deyil. Bu sırada Xorasanlı Ənvəri (?1126-?1191), Şirvanlı Xaqani (?1120-1199) və Nişapurlu (Xorasanlı) Fəridəddin Əttar`ı (?1145-?1221) yada salmaq olar. Nizami, yəqin ki, ədəbiyyat tarixində daha böyük yer tutmuşdur, amma bu üç şair də o tarixin səhifələrində yer almışlar.

Ənvəri fars ədəbiyyatının nəhənglərindən biri, mədhiyyə (paneqirik) ədəbiyyatının ən parlaq siması sayılır. Sultan Səncər (1086-1157) və sonrakı Səlcuq hökmdarları yanında çalışmış, yəni, mədhlər, odalar yazmış, şairlik etmişdir. Ənvəri ömrünün son illərini sufiyanə həyat keçirmişdi. J. Von Hammer Şərqin 7 məşhur şairi siyahısına Ənvəri`ni də daxil etmişdi (Firdovsi, Nizami, Sədi, Mövlana Cəlaləddin Rumi, Hafiz və Cami ilə yanaşı), Goethe isə məşhur Qərb-Şərq divanında Hafiz`i irəli çəkməklə bu şairləri vəsf etmişdi. Əslində, Şərqin özündə, farsdilli poeziyada yeddi nəhəngin olması barədə fikrə rast gəlinmir (ayrı-ayrı bir neçə şairin birgə böyüklüyündən söhbətlər açılsa da).



*Fəridəddin Əttar*

Əfzələddin Xaqani də məşhur mədhiyyəçi olmuş, səfər və həbs həyatına aid "Töhfətül İraqeyn" (İki İraqın töhfəsi), "Mədain xərabələri" və "Həbsiyyə" kimi klassikləşmiş poemalar və onu məşhur edən qəsidələr müəllifidir. "Töhfətül İraqeyn" Xaqani`nin tək epik əsəridir. Xaqani və Nizami farsdilli ədəbiyyatın Qətran Təbrizi`dən (?1009/14 - ?1092) başlayan Azərbaycan və ya Qafqaz məktəbinin qüdrətli təmsilçiləri sayılırlar; bu məktəbin nümayəndələri sözü geniş çalar və ibarələri ilə təqdim etməklə fərqlənmişlər. Xaqani, Nizamidən fərqli olaraq fəlsəfəni sevməmiş, fəlsəfəni və filosofları, o cümlədən, Platon, Aristotel və İbn Sina`nı, hətta böyük riyaziyyatçı Evklidi lazımsız və zərərli saymışdır[23]. Xaqani "Yalanşı kimyagərlər və iksiri məzəmmət" adlı şeirində fəlsəfəni "küfr"

[23] Mustafayev C. 1962. Философские и этические воззрения Низами. Bakı: Elmlər Akademiyası Nəşriyyatı. səh. 14-21



*Johann Wolfgang von Goethe*

adlandırmışdır[24] . Xaqani "Mən yeni obrazlar yaradan şairəm, incə mənalı xörəklər qoyulmuş süfrə mənə məxsusdur, Ünsüri (?-1039/40) və Rudəki (?860/80-940/41) süfrəmdən yeyilənin artıqlarını, qabaqdan qalanları götürürlər" (Я - поэт, создающий новые образы, стол, уставленный яствам тонкого смысла принадлежит мне, подбирают объедки с моего стола Унсури и Рудаки[25]) deyir, özünü özündən əvvəlki tanınmış şairlərdən, o cümlədən Sənai`dən üstün tuturdu.

Mədhiyyəçilər rəqiblərini, həmçinin nə zamansa onlara yaxşı baxmayan, onları layiqincə qiymətləndirməyən hökmdarları (imkan olanda) həcv atəşinə tutmuş, yəni, həm də satira və yumor ustası olmuşlar.

Xorasanlı (Nişapurlu) Fəridəddin Əttar (?1119/45-?1221/30) sufi poeziyasının klassik əsəri sayılan "Məntuq-ut-teyr" ("Quşların söhbəti") ilə məşhurlaşmışdı. Əttar "İlahinamə" və sonuncusu Mənsur əl-Həllac olan 39 sufi müqəddəsin həyatından bəhs edən nəsrlə yazılmış "Təzkirət ül-övliya" (Müqəddəslərin həyatı) kimi bir sıra çox oxunan əsər müəllifidir. Əttarın atası kimyaçı olmuş, aptek və ətriyyat mağazası açmış, Fəridəddin də bu mağazada işləmişdi; 0nun "Əttar" (əczaçı) təxəllüsü bu işlə bağlıdır. Fəridəddin mağaza işini tərk edib sufi həyatına başlamış, uzun səyahətə çıxmışdı. 7 pillədən ibarət Sufi yolunun, təriqətin təsvir edildiyi "Məntuq-ut-teyr"də (1175/90?) quşlar hərə öz vəziyyəti barədə danışır; hər quşun sözü bir insan həyatını, arzu və ehtirasını göstərir. Ən müdrik quş olan hop-hop (şanapipik) sanki sufi şeyxin təcəssümüdür. Hop-hop bütün quşları çox uzaqda, dağlar arxasında, yeddi vadidən o tərəfdə yaşayan quşlar padşahı Simurq`un yanına getməyə, onun işığı ilə birləşməyə çağırır. Quşlar Simurq`a çatmaq məqsədilə yola çıxırlar. Əksər quşlar yolda məhv olur və ya əldən düşüb davam edə bilmir, yolda qalır, yalnız otuz ("si") quş ("murq") son həddə gəlib çatır və... o məntəqədə bu quşlar yalnız özlərini (si murq) görə bilirlər; Quşlar Simurq`a, öz Günəş-güzgü olan tanrılarına və ya



*Qətran Təbrizi*

[24] Şirvani X. 2004. Seçilmiş əsərləri. Bakı: Lider. səh. 408-409

[25] Бертельс Е. Э. 1948. *Литература на персидском языке в Средней Азии*. "Советское востоковедение". Cild 5. Moskva: SSRİ Elmlər Akademiyası. səh. 202

həqiqətə qovuşurlar...Quşların belə səfər ideyasına əl-Qəzali`də rast gəlinir. "Məntuq-ut-teyr"in əsas xətti maraqlı rəvayətlərlə müşayiət olunur; onun 14-cü məqaləsi məşhur Şeyx Sənan rəvayətindən ibarətdir. Cəlaləddin Rumi Sənai və Əttarı çox yüksək qiymətləndirirdi.

## Nizami məktəbi

Şərq şairlərinin epik poeziya sahəsində fəaliyyəti əsasən üç istiqamətdə, üç məktəb şəklində inkişaf etmişdir: Firdovsi və ya "Şahnamə" məktəbi, Sufi məktəbi və Nizami məktəbi. Hökmdar və mifik qəhrəmanların həyat və fəaliyyət tarixi üzərində qurulan poetik - epik məktəb "Şahnamə" ilə başlandı. "Şahnamə" kimi əsər yazmaq işinə girişənlər olsa da, heç biri böyük uğur qazana bilmədi. Bu sırada 11-ci əsr fars şairi Əsədi Tusi`nin İran tarixi ilə bağlı "Gərşasbnamə" məsnəvisini yada salmaq olar. Ümumiyyətlə, "Şahnamə" kimi poetik hökmdarlar tarixi yazmaq ideyası məhsuldar olmadı – belə demək mümkündür. Amma, Firdovsi - Şahnamə məktəbi Nizami məktəbinin yaranması və inkişafında böyük rol oynadı, bu fikir sufi məktəbi üçün yalnız qismən doğrudur.

Sufilik hərəkatının tarixi uzaqlara getsə də, poetik sufi məktəbi Sənai ilə başladı, Fəxrəddin Əttar ilə həm nəzəriyyə qazandı, həm də çox populyarlaşdı və Cəlaləddin Rumi ilə zirvəyə çıxdı. C. Rumi`nin təvazökar sözləri diqqətəlayiqdir: "Əttar ruh idi, Sənai isə onun iki gözü; mən isə Sənai və Əttarın izləri ilə gəlmişəm", "Əttar yeddi məhəbbət şəhərini dolanıb gəzib, amma biz bir küçə keçmişik"[26].

Nizami Firdovsi məktəbindən qidalanmış, sufi ideyalarına biganə olmamış, eşqi tərənnüm edən poetik epik-lirik məktəbin əsasını qoymuşdur. Nizami yolunu seçən məşhur şairlər meydana çıxmışlar. Nizami ən çox təqlid olunan ədiblərdən biridir. "Xəmsə"yə daxil olan poemaların hər birinə çoxsaylı bənzətmələr, nəzirələr yazılmışdır (bax, məsələn, E. Э. Бертельс. Низами и Фузули.)[27] Nizami`dən sonra nə qədər "Leyli və Məcnun" yazıldığını demək çətindir. Nizami və Füzuli`nin "Leyli və Məcnun"u və Füzuli dühası barədə M.Ə. Rəsulzadənin fikri maraqlıdır: "Nizami Məcnunu şeirləşdirmiş isə, Füzuli şeiri məcnunlaşdırmışdır"[28]. Əmir Xosrov Dəhləvi (1253-1325), Ə. Cami (1414-1492), Əlişir Nəvai (1441-1501), M. Füzuli (1494-1556) kimi nəhənglər Nizami`nin "Xəmsə"sini izləmişlər. Əmir Xosrovun Nizamidən daha sadə, asan oxunan olduğu və hətta Nizami`nin "Xəmsə"sinə maraq və diqqəti artırdığı deyilir.[29] Nizami`nin davamçılarından bir qismi həm də sufi məktəbinin nümayəndəsi sayılırlar. Ümumiyyətlə, böyük şairlərin əksəriyyəti fərqli məktəblərdən təsirlənib, sintez etmək qabiliyyətinə malik olurlar.

"Xəmsə" və "Şahnamə" orta əsrlər miniatür sənətində ən çox əks olunan əsərlərdir. Nizami motivləri çağdaş zamanımızda da ədəbiyyat, musiqi və incəsənətdə yeni əsərlər meydana çıxaran böyük ilham qaynağı olmuşdur. Nizami əsas dünya dillərinə tərcümə olunmuşdur.

[26] İsaxanlı H. 2008. Elm və Sənət Məclisi 1-10. Bakı: Xəzər Universitəsi Nəşriyyatı. səh. 46

[27] Бертельс Е. Э. 1962. Низами и Фузули. Moskva: Vostochnaya Literatura

[28] Rəsulzadə M. Ə. 2021. Azərbaycan şairi Nizami. Bax: Nizami Gəncəvi. Unudulmuş nəşrlər. Bakı: TEAS Press. səh. 414

[29] Бертельс Е. Э. 1948. *Литература на персидском языке в Средней Азии.* "Советское востоковедение". Cild 5. Moskva: SSSR Elmlər Akademiyası. səh. 216

## Birinci hissədə istifadə olunmuş ədəbiyyat siyahısı

De Blois F. 2004. Persian Literature – A Biobibliographical Survey: Volume V. Poetry of the Pre-Mongol Period. London: Routledge. səh. 363.

Гандзакеци К. 1976. Краткая история периода, прошедшего со времени святого Григора до последних дней, изложенная Вардапетом Киракосом в прославленной обители Гетик. Глава 21. О разорении города Гандзак. Moskva: Nauka. səh. 154.

Ибн Лютфуллах А. 1957. "Джами ад-Дувал". Ибн ал-Азрака ал-Фарики из "Истории Майяфарикина". Том XII. Bakı: Труды института истории. Bax: https://www.vostlit.info/Texts/rus17/Achmed_Dede/text2.phtml?id=12780

Мухаммад ан-Насави Ш. 1996. Жизнеописание султана Джалал ад-Дина Манкбурни (Сират ас-султан Джалал ад-Дин Манкбурны.) Tər. Bünyadov Z. səh. 274.

Lornejad S. və Doostzadeh A. 2012. On the Modern Politicization of the Persian Poet Nezami Ganjavi. Ed Arakelova, V. Yerevan: Caucasian Centre for Iranian Studies.

Крымский А. 1981. Низами и его современники. Bakı: Elm. səh. 92, 93.

Gəncəvi N. Lirika. 1983. Bakı: Elm. səh. 23.

Бертельс Е. Э. 1948. Литература на персидском языке в Средней Азии. "Советское востоковедение". Вып. V. Moskva: Издательство Академии Наук СССР. səh. 200, 202.

Rəsulzadə M. Ə. 2021. Azərbaycan şairi Nizami. Bax: Nizami Gəncəvi. Unudulmuş nəşrlər. Bakı: TEAS Press. səh. 113, 135, 137, 140, 327, 395.

## İkinci hissədə istifadə olunmuş ədəbiyyat siyahısı

Füzuli M. 2005. Əsərləri 6 clddə 1ci cild. Bakı: Şərq-Qərb. səh. 29.

İsaxanlı H. 2018. Əlkimya: elm, sənət və mistika. Bakı: Xəzər Universiteti Nəşriyyatı

İsaxanlı H. 2020. Alchemy in Eastern Literature. Khazar Journal of Humanities and Social Sciences. Volume 23, Number 1. səh. 22-47.

Heybullayeva R. və Ruymbeke C. (red.) 2020. Nizami on Alchemy. Book Chapter in "The Interpretation of Nizami`s Cultural Heritage in the Contemporary Period. Berlin: Peter Lang. səh. 215-233.

Бертельс Е. Э. 1981. Низами и Фирдоуси. В "Выдающиеся русские ученые и писатели о Низами Гянджеви. Bakı: Yazıçı. səh. 127-176.

Mustafayev C. 1962. Философские и этические воззрения Низами. Bakı: Elmlər Akademiyası Nəşriyyatı. səh. 14-21.

Şirvani X. 2004. Seçilmiş əsərləri. Bakı: Lider. səh. 408-409.

Бертельс Е. Э. 1948. Литература на персидском языке в Средней Азии. "Советское востоковедение". Cild 5. Moskva: SSRİ Elmlər Akademiyası. səh. 202.

İsaxanlı H. 2008. Elm və Sənət Məclisi 1-10. Bakı: Xəzər Universitəsi Nəşriyyatı. səh. 46.

Бертельс Е. Э. 1962. Низами и Фузули. Moskva: Vostochnaya Literatura.

Rəsulzadə M. Ə. 2021. Azərbaycan şairi Nizami. Bax: Nizami Gəncəvi. Unudulmuş nəşrlər. Bakı: TEAS Press. səh. 414.

Бертельс Е. Э. 1948. Литература на персидском языке в Средней Азии. "Советское востоковедение". Cild 5. Moskva: SSSR Elmlər Akademiyası. səh. 216.

(*Davamı var*)

# "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

# LETTER OF THANKSTO KHAZAR UNIVERSITY

## AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

**Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri cənab Hamlet İsaxanlıya**

Hörmətli Hamlet müəllim,

İlk öncə bir kitabsevər kimi məmləkətimiz olan Odlar Yurdunun öz zəngin mədəni irsi, möhtəşəm tarixi, dəyərli ictimai xadimləri və sənətkarları ilə tanınan gözəl Qarabağımıza həsr etdiyiniz bu önəmli və kifayət qədər maraqlı məlumatları özündə əks etdirən əsərə görə Sizə minnətdarlığımı bildirirəm.

Xüsusilə 44 günlük Qarabağ Zəfərimizdən sonra vətənimizin ayrılmaz parçası, elm, təhsil, mədəniyyət və musiqi mərkəzi olan dillər əzbəri Qarabağımız haqqında maraqlı kitab olması məni bir azərbaycanlı olaraq həm kövrəltdi, həm də sevindirdi.

Hesab edirəm ki, Qafqazın önəmli mərkəzlərindən olan Qarabağımızın tarixinə müxtəlif istiqamətləri bir arada tutaraq əsl ziyalı yanaşması göstərməyiniz oxuyucular üçün də əsas maraq doğuran cəhətlərdən biri olacaqdır.

Əminliklə deyə bilərəm ki, "Mənim Qarabağım və ya Qarabağ düyünü" adlı qələmə aldığınız bu kitab universitetimizin kitabxanasında xüsusi yer tutacaq, xüsusilə gənclərimiz üçün Qarabağın tarixinə qısa nəzər salan, mərhələli formada Qarabağ probleminin yaranmasını özündə əks etdirən, xüsusilə müasir dövrdə problemin həllinə dair beynəlxalq aləmin yanaşmasına ətraflı işıq salan məlumat mənbəyi kimi mühüm rol oynayacaqdır.

Bu günədək adı keçən mövzu haqqında çox kitablar yazılıb, yazılır və yazılacaqdır. Bizləri oxucu olaraq maraqlandıran ən önəmli cəhət məlum məsələyə Sizin kimi dürüst müəllif və ziyalı baxışı ilə yanaşılmasıdır.

Sizə bundan sonrakı elmi yaradıcılığınızda bol-bol uğurlar diləyir, nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

**Rektor İlham Mədətov**

*07 sentyabr 2022-ci*

## AZERBAIJAN UNIVERSITY OF TOURISM AND MANAGEMENT

**To Professor Hamlet Isakhanli, Chairman of Khazar University's Board of Directors, and Trustees**

Dear Hamlet Isakhanli,

First of all, as a book lover, I would like to express my gratitude to you for the work that contains this important and quite interesting information that you dedicated to our beautiful Karabakh, known for its rich cultural heritage, magnificent history, valuable public figures and artists.

Especially after our 44-day Karabakh Victory, I, as an Azerbaijani, was deeply moved and delighted by the fact that there is an interesting book about our Karabakh, which is an integral part of our homeland, a center of science, education, culture and music.

I believe that your presentation of a real intellectual approach to the history of Karabakh, which is one of the important centers of the Caucasus, by combining various directions, will be one of the main points of interest for the readers.

I can say with certainty that this book you have written entitled "My Karabakh or the Karabakh Knot" will have a special place in the library of our university and play an important role, especially for our young people, as a source of information that gives a brief look at the history of Karabakh, reflects the emergence of the Karabakh problem in a step-by-step form, and sheds light on the approach of the international world to solving the problem, especially in modern times.

To date, many books have been written, are being written and will be written about the aforementioned topic. The most important aspect that interests us as readers is that an honest author and intellectual like you approach the known issue.

I wish you a lot of success and achievements in your further scientific creation.

*Sincerely,*

**Rector Ilham Madatov**

*September 07, 2022*

# "DÜNYA" MƏKTƏBLƏRİNDƏ ŞƏHİD, QAZİ ÖVLADLARININ ÖDƏNİŞSİZ TƏHSİL ALMASI ÜÇÜN KVOTA AYRILIB

# QUOTA FOR CHILDREN OF MARTYRS AND VETERANS TO RECEIVE FREE EDUCATION IN "DUNYA" SCHOOLS DETERMINED

Sentyabrın 13-də Sumqayıt "Dünya" məktəbində yeni tədris ili münasibətilə müəllim - şagird kollektivinin, iştirakı ilə tədbir təşkil olunub. Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra "Dünya" məktəblərinin və Xəzər Universitetinin təsisçisi, universitetin Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı çıxış edərək, məktəbliləri salamlayıb, birincilərə uğurlar diləyib. O, həmçinin, Azərbaycan üzrə fəaliyyət göstərən "Dünya" məktəbləri tərəfindən şəhid və qazi övladlarının ödənişsiz təhsili üçün xüsusi kvota ayrılması və onların bütün xərclərinin qarşılanması barədə məlumat verib.

Tədbirin yekununda birincilər ilk zəngin sədaları altında məktəbə daxil olublar.

Qeyd edək ki, 1998-ci ildə Xəzər Universitetinin nəzdində Bakıda yaradılmış "Dünya" məktəbi hazırda Sumqayıt və Gəncədə də fəaliyyət göstərir.

*Xeberle.com* saytı tədbir haqqında xəbər yayımlayıb:

On September 13, an event was organized in Sumgayit "Dunya" school on the occasion of the new academic year with the participation of teachers, students. After the Azerbaijani National Anthem was played, professor, academician Hamlet Isakhanli, founder of "Dunya" schools and Khazar University, chairman of the Board of Directors and Trustees of the university, made a speech and congratulated the students and wished them success. He also informed about the allocation of a special quota for the free education of the children of martyrs and veterans by "Dunya" schools operating in Azerbaijan and covering all their expenses.

At the end of the event, the first classes entered the school under the sound of the first bell.

Noted that "Dunya" school, which was established in Baku under Khazar University in 1998, currently also operates in Sumgait and Ganja.

The website *xeberle.com* published a news about the event:

***https://xeberle.com/T%C9%99hsil/96289-sumqayit-dunya-mektebinde-shehid-qazi-ovladlarinin-odenishsiz-tehsil-almasi-uchun-kvota-ayrildi-fotovdeo.html***

## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin nəşri olan "Dünya" jurnalının yeni nömrəsi (2022-ci il, 43 - cü nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

## NEW ISSUE OF "DUNYA" JOURNAL PUBLISHED

The new issue of "Dunya" magazine (2022, number 43), which is a publication of Khazar University "Dunya" school, has been published by Khazar University printing house.



# XƏZƏR UNİVERSİTETİ İLƏ MİKROBİOLOGİYA İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIQ GENİŞLƏNİR

# COOPERATION BETWEEN KHAZAR UNIVERSITY AND INSTITUTE OF MICROBIOLOGY IS EXPANDING



Sentyabrın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Hamlet İsaxanlı və universitetin rektoru dosent İradə Xəlilova Mikrobiologiya İnstitutunda olublar.

İnstitutun baş direktoru, AMEA-nın müxbir üzvü Pənah Muradov rəhbərlik etdiyi elmi müəssisənin əsas fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələri barədə məlumat verib.

Görüş zamanı elm və təhsil sahəsində əməkdaşlıq istiqamətləri haqqında fikir mübadiləsi aparılıb. Tərəflər gələcəkdə birgə təcrübə mübadiləsinin aparılması, elm və təhsil sahəsində müştərək layihələrin həyata keçirilməsinin zəruriliyi haqqında razılığa gələrək, əməkdaşlıqla bağlı müqavilənin imzalanmasını məqsədəuyğun hesab ediblər.

Sonra qonaqlar institutun laboratoriyalarında aparılan elmi-tədqiqat işləri ilə tanış olublar.

*AZƏRTAC* bu barədə xəbər yayımlayıb:

On September 13, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, full member of the Georgian National Academy of Sciences, professor Hamlet Isakhanli and its rector, associate professor Irada Khalilova, visited the Institute of Microbiology.

The director general of the institute, Panah Muradov, corresponding member of ANAS, informed about the main activities and international relations of the scientific institution he leads.

During the meeting, opinions were exchanged on cooperation directions in the field of science and education. The parties agreed on the necessity of joint experience exchange, implementation of joint projects in the field of science and education in the future, and considered it expedient to sign an agreement on cooperation.

Then the guests got acquainted with the scientific-research works carried out in the laboratories of the institute.

*AZERTAC* published news about it:

***https://azertag.az/xeber/Mikrobiologiya_Institutu_ile_Xezer_Universiteti_arasinda_emekdasliq_genislenir-2292488***

# XƏZƏR UNİVERSİTETİ İLƏ TORPAQŞÜNASLIQ VƏ AQROKİMYA İNSTİTUTU ARASINDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNUB



Sentyabrın 13-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Hamlet İsaxanlı və universitetin rektoru dosent İradə Xəlilova Torpaqşünaslıq və Aqrokimya İnstitutunda olublar.

Qonaqlar Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru professor Əlövsət Quliyev və həmin müəssisənin elmi katibi Sultan Hüseynova ilə görüşərək, əməkdaşlıq məsələlərini müzakirə ediblər. Professor Ə.Quliyev rəhbərlik etdiyi müəssisənin fəaliyyəti barədə məlumat verərək, bir sıra mühüm istiqamətlərdə əməkdaşlığın vacibliyini qeyd edib.

H.İsaxanlı qarşılıqlı maraq doğuran fəaliyyət sahələrində əməkdaşlığın, birgə multidisiplinar layihələrdə iştirakın əhəmiyyətini vurğulayıb. O, Xəzər Universitetinin Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə gələcək əməkdaşlığının həm alimlər, həm də tələbələr üçün faydalı nəticələr verəcəyini qeyd edib. Tərəflər arasında növbəti görüşün Xəzər Universitetində keçirilməsi qərara alınıb.

*AZƏRTAC* görüş haqqında xəbər yayımlayıb:

# ISSUES OF COOPERATION BETWEEN KHAZAR UNIVERSITY AND INSTITUTE OF SOIL SCIENCE AND AGROCHEMISTRY DISCUSSED

On September 13, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, full member of the Georgian National Academy of Sciences, professor Hamlet Isakhanli and its rector, associate professor Irada Khalilova, visited the Institute of Soil Science and Agrochemistry.

The guests met with Professor Alovsat Guliyev, the director general of the Institute of Soil Science and Agrochemistry, and Sultan Huseynova, the scientific secretary of the Institute, and discussed issues of cooperation. Professor A. Guliyev informed about the activity of the Institute and noted the importance of cooperation in a number of important directions.

H.Isakhanli emphasized the importance of cooperation in areas of mutual interest and participation in joint multidisciplinary projects. He noted that future cooperation with Khazar University and the Institute of Soil Science and Agrochemistry will bring beneficial results for both scientists and students. It was decided to hold the next meeting between the parties at Khazar University.

*AZERTAC* published news about the meeting:

*https://azertag.az/xeber/Torpaqsunasliq_ve_Aqrokimya_Institutunda_Xezer_Universiteti_ile_emekdasliq_meseleleri_muzakire_olunub-2292842*



# Çin Xatirələri

**Aynur Qəzənfərqızı**
*Xəzər Universiteti dillər və ədəbiyyatlar departamentinin müəllimi, filalogiya üzrə fəlsəfə doktoru*

2019-cu ilin iyul ayında Türkiyənin Mədəniyyət və Turizm Nazirliyindən aldığımız dəstək ilə "Uluslararası Dədə Qorqud İzində/Sözündə" ("Uluslararası Dede Korkut İzinde/Sözünde") layihəsinin bir hissəsi olan Türküstan gəzintisini gerçəkləşdirmək üçün Bayburtdan üzü Gürcüstana doğru yol almışıq. Bir avtobus dolusu türkiyəli və azərbaycanlı müəllim-tələbə heyəti ilə gedirik və şərtə əsasən bir ay ərzində Bayburtdan yola çıxıb, Dədə Qorqud dastanında adı keçən hər yeri quru yolu ilə gəzəcəyik. Marşrut Türkiyə-Gürcüstan-Azərbaycan-İran-Türkmənistan-Qazaxıstan-Özbəkistan-Qırğızıstan şəklində planlanlaşdırılıb. Elə Gürcüstan sərhədinə təzəcə çatmışdıq ki, emailimə bir məktub gəldi. Məktubun başlığı Çin heroqlifləri ilə yazılıb və kifayət qədər virusa bənzəyirdi. Məktubu spam qutusuna atdım.

Sonra Gürcüstandan keçərək, Gəncə şəhərində layihəmiz çərçivəsində düzənlədiyimiz simpozium zamanı bir zəng gəldi. Olduqca əcaib bir nömrədən. Təəccüb içində zəngə cavab verdim. Xəttin o başından çox pozuq bir ingiliscə danışan qadın özünü təqdim edir: Mən Hebei Foreign Studies Universitetinin tərcüməsidekanıyam. Adım Hu Yin Ci`dir. Sizi universitetimizdə işləməyə dəvət edirik. Əvvəlcə zarafat hesab etdim, sonra nömrənin əcaibliyini xatırlayıb, iş təklifi olduğunu anladım. Dekana bildirdim ki, indi bir aylıq bir səfərin başlanğıc mərhələsindəyəm və bu məsələyə ancaq Bakıya qayıdandan sonra baxa bilərəm. Dekan çox sevindi və sənədləri toplamaq üçün mənə yardım edəcəyini söylədi. Sonuncu cümləsinin nə qədər dəyərli olduğunu anlamadan telefon söhbətini bitirdim.

Çox maraqlı keçən bir aydan sonra Bakıya qayıtdım. Bir gün Türküstan səfərimdən də yazacağamı hiss edirəm, hələlik mövzumuzda qalaq. Bakıya qayıdarkən ilk işim AMEA Folklor İnstitutunun direktoru akademik Muxtar Kazımoğlunun yanına getmək oldu. Aldığım iş təklifindən danışdım və ezamiyyə istədim. Folklor İnstitutunun tam kadr işçisi idim və oradan ezam olunmalı idim. Muxtar müəllim bildirdi ki, Çinə getsəm, məcburən işdən çıxarılacağam, çünki akademiya bu cür ezamiyyə vermir. Çox təəssüfləndim və Çin xəyalımın bitməsindən məyus halda otaqdan çıxdım.

Çinə gedib bir müddətlik özünüinkişaf çərçivəsində ən çoxu bir il qalıb, innovativ yenilikləri öyrənib, ölkəmə qayıdıb burada tətbiq etməyi planlamışdım. İndi burada işdən çıxmaq bahasına Çinə getmək heç cazibəli gəlmirdi doğrusu. Ordan çıxanda Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlının köməkçisi zəng etdi və müəllimin məni çağırdığını bildirdi. Birbaşa Xəzər Universitetinə getdim. Həmin zamanlar biz Hamlet müəllim ilə "Dedi-qodu folklor janrıdırmı" başlıqlı məqalə yazırdıq, müəllimin məni çağırması da bununla əlaqədar idi. Söhbət əsnasında doluxsunub, xəyalımın suya düşməsindən danışdım. Hamlet müəllim ingilis dilini bilən, modern, üzünü dünyaya tutmuş alimlərimizdən olduğu üçün bir müəllimin Çinə gedib, orada universitetdə işləməsinin nə qədər önəmli olduğunu da bilirdi. Odur ki, mənim suya düşmüş xəyallarıma bir cümləsi ilə can verdi: "gəl səni mən burdan göndərim". Dərhal məmnuniyyətlə və olduqca böyük bir şükran hissi ilə razılaşdım. Folklor institutundan işdən çıxdım, Xəzər Universitetində

tam kadr işə düzəldim və dərhal da Çinə iki illik ezamiyyəmi aldım.

Qalmışdı bir məsələ: indiki həyat yoldaşım ilə danışmaq. O zaman biz bir aylıq səfərdən qayıtdıqdan sonra evlənmək planları qurmuşduq. İndi işlər dəyişmişdi və mən artıq Çinə getməyi planlamışdım. Qarşımdakının yetkin, kompleksiz və işimə sayğılı bir Türkiyə bəyəfəndisi olduğunu onun mənə verdiyi cavabdan anladım: "gəlim Bakıya, sənədlərini toplayana qədər nişanlanaq, sonra sən get Çinə çalış, qışda da toyumuzu edək, mən də vizamı alım gedək Çinə". Necə gözəl həll yolu tapmışdısa, artıq səsimi çıxarmayıb, Allahın qarşıma çıxardığı oğlan üçün təşəkkür edib razılaşdım. Nişanlandıq, aeroportdan mən Çinə getdim, o, Türkiyəyə döndü...

Bakıdan ilk transferim Astanaya oldu. Astana aeroportunu görəndə, Heydər Əliyev adına aeroportun nə qədər gözəl, möhtəşəm olduğunu düşündüm və olduqca qürurlandım. Sonra Astanadan Quan Ju`ya uçdum. Təyyarədən düşərkən məni iki assistentim qarşıladı. İngiliscələri normal və yaxşı. Oh, necə sevindim Allah bilir. Normalda bir assistent olmalıdır, ancaq iki assistent bu universitetin özəl tələbidir. Belə ki, assistentlərdən biri sırf fəaliyyətin ilə maraqlanır. Məsələn, dərslərin hazırlanmasında, araşdırmalarında yardımçı olur. İkincisi isə mənimlə dükana, gəzməyə gedir, işlərimi asanlaşdırır. Hər ikisi də maaş alır. Birinci assistent əlaçı tələbələr, ikinci assistent zəif oxuyan tələbələrdən seçilir. Bu sistem çox xoşuma gəlmişdi. Universitetin ikinci assistenti təsis etməsinin səbəbi o idi ki, burada yüzə yaxın ölkədən müəllim var idi və hamısı öz dilini öyrədirdi. Universitetdə Çinin "Bir qurşaq, bir yol" şüarı əsasında keçmiş İpək yolu üzərində olan bütün ölkələrin dilləri tədris olunurdu. Bunun üçün həmin ölkələrin mütəxəssislərini dəvət edirdilər. Hər kəs kimi mən də Azərbaycan dilini, Azərbaycan mədəniyyətini və qismən ədəbiyyatımızı öyrədirdim. Mənim dərsimdə öyrəndikləri bir sözün, əslində, özbək dili dərsində də deyildiyini anlayır və gəlib səbəbini məndən soruşurdular. Mən də gülümsəyib izah edirdim ki, hamımız türkük və ona görə də dilimizdə eyni sözlərin olması normaldır.

Aeroportdan asistentlərimin köməyi ilə avtobusa mindik. Günəş düz bucaq altında qovururdu insanları. Küçədə insan seli. İşıqforlar belə olduqca qəribə idi. Yaşıl yanırdı, ancaq avtobus tərpənmirdi. Gözləyirdi. Nə gözlədiyinə baxanda, çox heyrətamiz bir mənzərə gördüm. Yaşıl işıq yanarkən əvvəlcə velosiped sürənlər, arxasınca motosikl sürənlər, daha sonra maşınlar keçdi. Assistentim Amily (universitetdəki əcnəbi müəllimlərin çin adlarını tələffüz edə bilmədiklərini nəzərə alaraq, hər tələbəyə bir ingiliscə ad qoymuşdular) dedi ki, insanlar velosiped və motosiklləri gündəlik kirayələyir, işlərinə onunla gedib gəlir. Bu olduqca ucuz



başa gəlir və vaxt itkisinin də qarşısını alır. Yolları velosiped və motosikl sürənlər, piyadalar və avtomobillər üçün səliqə ilə ayırmışdılar. İnsanlar tamamilə işıqforlara və yol hərəkəti qaydalarına uyğun davranırdılar.

Aeroportda məni qarşılamağa gələrkən yeni sim kartı da əllərində hazır gətirmişdilər. İçində interneti də hazır idi. Yutubu açmaq istədim əvvəlcə. Açılmadı. Daha sonra vatsapı açmağa çalışdım. Açılmadı. Telefonu uşaqlara uzatdım və kömək istədim. Assistentlər nə yutub, nə də vatsapın nə olduğunu bilmədilər. Artıq getdikcə vəziyyət maraqlı hal alırdı. Onların nə ilə xəbərləşdiyini və hardan video izlədiklərini soruşdum. Açıb öz proqramlarını göstərdilər. Vatsap əvəzinə viçet, youtub əvəzinə isə elə youtub dizaynında, ancaq çincə heroqliflər ilə yazılmış bir app göstərdilər. Orda hər şey Çinə aid idi. Çinin mahnıları, Çinin kinoları. Viçet də tamamilə çinlilərə aid idi. Vatsapdan yüz dəfə artıq funksiyaları var idi. Məsələn, çinlilər üstündə pul daşımırdı. Viçetdən QR kodu oxudub, ödəmə edirdi hər yerdə. Bazardan  mağazaya, taksidən  avtobuslara qədər hər yerdə. Nağd anlayışı Çində tarixə qarışmışdı. Çox nadir halda insanlar  bizim kimi nağd pul ilə ödəmə edirdi. QR kodu oxutmaq üçün isə xüsusi bir bank akkauntunun olması vacib idi. Məhz bu akkauntun olması üçün bürokratik əngəlləri aşa bilərdimsə, düz iki aylıq növbədən sonra bank akkauntum ola bilərdi. Mən Çinə gedərkən üzərimdə  500 dollar götürmüşdüm ki, Çin üçün bu olduqca çox pul idi, ancaq düz bir həftə ac qaldım. Bu barədə aşağıda daha geniş yazacağam.

Assistentlərim universitetə çatdığımızı bildirdilər. Mənim alışdığım universitet binası əvəzinə bir qəsəbə gördüm. Böyük, geniş, rahat. Tələbələr üçün oyun yeri, istirahət yeri, qalmaq yeri və s. Sonra öyrəndim ki, bu, Çindəki o qədər də böyük olmayan universitetlərdən biridir. Dilim dodağım qurumuşdu, assistentimdən su istədim. Mənə isti su gətirdi, içmədim, soyuq, buz kimi su verməsini istədim. Qızcığaz heyrətlə mənə baxaraq dedi: “Axı soyuq su adamı qocaldır”. Həmin an onun dediyinə əhəmiyyət vermədim. Düşünürdüm ki, ciyərimin yanğısını ancaq buz kimi su sərinlədə bilərdi. Sərin su tapılmadı ki, tapılmadı. Çində olduğum müddətdə də sərin su tapıb içə bilmədim.

Məni müəllimlər yaşayan yataqxanaya apardılar. Hər otaqda hamam-tualet var idi. Bir otaq, otağın ortasında yekə bir çarpayı, yazı masası, paltar şkafları. Şkaflar dəmirdən, lap köhnə Sovet stilində. Pəncərələrdə də Sovet zamanı məktəb pəncərələrindən asılmış pərdələr kimi pərdələr. Ruhum artıq daralmağa başlamışdı. Mən mətbəxin harada olduğunu soruşdum. Tələbələr gülə-gülə dedilər ki, əcnəbi müəllimlərimizin Çin yeməkləri ilə yaxından tanış olmaları üçün yataqxanada mətbəx tikməyiblər. Onlara yeməkxanamızda ucuz və keyfiyyətli Çin yeməkləri təklif edirik.

Özümə yemək bişirməmək ən qorxulu röya idi. Neyləyə bilərdim, qaydalara alışmalıydım. Qızlara təşəkkür edib, onları yola saldım. Düz bir həftə rəhbərlikdən kimsə məni nə qəbula çağırdı, nə də otağıma gələn oldu. Pul xırdalatmaq üçün müraciət etdim, ancaq  bir şey edə bilmədilər. Allahdan Bakıda çantamı yığarkən qardaşım arvadı Günay İlqar qızı təkidlə badımcan kürüsü və on dənəlik lavaş paketini çantama qoymuşdu. Bir həftə boyunca onları yedim. Məsələ burasıdır ki, Çində “exchange” çox əziyyətli işdir. İstədiyin kimi gedib pul dəyişə bilmirsən. Bunun üçün bankda sırf pul dəyişdirə biləcək özəl akkauntun olmalıdır. O yoxdursa, pul dəyişdirə bilməzsən. Günlərdir qızlar çarə axtarır, ancaq bir yol tapa bilmirlər. Rəhbərlikdən də kimsə gəlmir, getmir və mən də acından halsız vəziyyətdə uzanıram.

Axır ki, məni dekanlığa çağırdılar. Durdum getdim. Dekan hədsiz quru hərəkətlər ilə məni qarşıladı və ödəmə etməli olduğumu söylədi. Mən də eyni quruluqda və soyuq səs tonu ilə ona bildirdim ki, bir həftədir xaricdən qonaq müəllim gətirdib, onunla bir dəfə də olsun maraqlanmamısınız, qəbulunuza çağıranda da pul istəyirsiniz? Əgər daha öncə gətirtdiyiniz bu müəllim ilə maraqlansaydınız bilərdiniz ki, əlindəki pulu dəyişdirə bilmir və ac-susuz otağında oturub. Dekan susdu, mən də sağollaşıb otaqdan çıxdım. İki saat sonra qapım döyüldü və bir zərfin içində pul göndərildi. Bu pulu mənə borc vermişdilər. Dolları dəyişib Çin pulu alanda qaytarmalıydım. Mənim pulumun dəyişdirilməsi isə düz bir aydan sonra baş tutdu. Vəziyyəti artıq siz təsəvvür edin.

Azərbaycandan sağlamlıq kağızı gətirməyimə baxmayaraq, orada yenidən müayinə olunmağım tələb edildi. Assistentim ilə getdim. Poliklinikalarındakı sistem eynən bizim poliklinikalar kimi idi. Heç bir fərq yox idi. Həkimlər ifadəsiz üzləri ilə öz işlərini gördülər və getdilər. Vəziyyət elə idi ki, hətta bəzi həkimlər danışmırdı belə. İçəri girib “Nihao” (çincə “salam” deməkdir) deyirdim, qarşılığında cavab verməyi qoyun qırağa, heç başlarını yazdıqları kağızdan ayırıb, üzümə baxmırdılar. Sıxılırdım. Çox sıxılırdım. Özü də hələ ikinci həftəmdə. Xəstəxana illətindən birtəhər qurtulub gəldim universitetə. Dekan xəstəxana kağızlarının dərs keçməyə yararlı olduğunu söylədi. Demək, sabahdan dərslərə başlayacaqdım. Sevincək otağıma qayıtdım. Hazırlığımı gördüm və səhər durub universitetə getdim.

Dekan qruplar haqqında məlumat verdi və məni sinif otağına apardı. Auditoriyaya ilk girdiyimdə gördüyüm o oldu ki, tələbələrin oturuş qaydası fərqlidir. Üzbəüz otururlar və hər birinin qarşısında bir notbuk, planşet var. Sonra öyrəndim ki, tələbələr universitetə qəbul olunanda onlara planşet, notbuk və telefon verirlər. Məzun olduqda isə onları universitetə qaytarırlar. Tələbələr beləliklə rahat bir şəkildə internet üzərindən araşdırma apara bilirlər. Çox maraqlı gəldi bu mənə.

Dekan məni tələbələrə ingilis dilində təqdim etdi, sonra öz dilində tapşırıqlarını verib getdi. Qaldıq tələbələr ilə baş-başa. Salamlaşdıq və tanış olmaq mərhələsinə keçmədən öncə uşaqlar mənimlə şəkil çəkdirmək istədiklərini bildirdilər. Razılaşdım. Şəkil çəkdirib. müəllim kürsüsünə qalxdım. "Qalxdım" yazıram, çünki müəllim kürsüsü tələbələrin rahat görünməsi üçün hündürdə idi. İlahi! Bir də nə gördüm?! Masadan buğ çıxır. Təəccüblə nə baş verdiyini soruşdum. Tələbə sabah qəhvəaltısı üçün yumurta qaynatdığını dedi. Bu prosesi dərsdən sonra etməsini istədim. Tələbə məyus bir şəkildə saat 10-da mütləq qəhvəaltısını etməli olduğunu və yumurtanın da bişdikdən sonra ən az bir saat soyumalı olduğunu bildirdi. Arxasınca isə əgər bunu etməsə, sağlamlığına zərər dəyəcəyini və bunu heç istəmədiyini dedi. Mat qaldım. Nə deyəydim? Susdum qaldım. Birdən fərqinə vardım ki, otağın hər yerində innab var. Hamı innabdan istifadə edir. Tanışlığı filan boş verdim və innabı soruşdum. Uşaqlar təəccüblə üzümə baxdılar və "yeməklərdən yarım saat öncə və yarım saat sonra mütləq innab çayı içilməlidir" dedilər. Artıq tələbələrimin gözündə bir cahil idim. İnnab çayını eşitməmişdim, üstəlik, innab mənim üçün ancaq Novruz bayramında süfrə məzəsi idi. Burada isə ən ucuz və bol meyvə idi. "Bəs alma niyə hamının masasının üstündədir"- deyə soruşdum. Güldülər, "müəllim, alma olmasa, insan necə sağlam olar"- dedilər Bəli, mən artıq sağlamlığın sirrini kəşf etmişdim: isti su, innab çayı və alma...

Dərsə başlamazdan öncə uşaqlardan Azərbaycan ilə bağlı məlumat istədim. Maşallah, demək olar ki, hər şeyi araşdırıb hazırlıqlı gəlmişdilər. Bir tələbə qalxıb Nohur gölün sahəsini soruşdu. Bilmədim, dərhal google xidmətindən istifadə etməyə qərar verdim və Çində heç bu app-in də işləmədiyini anladım. VPN şərt idi. Mən google xidmətinin burda işləmədiyini anlayıb, tələbələrdən Azərbaycan haqqında bilgini haradan aldıqlarını soruşdum. Öz googlları var imiş. Sağ olsun çincə bilən azərbaycanlılar orada da ölkəmiz haqqında məlumat yerləşdiriblər. Bu sevindirici xəbərdən sonra tələbələrdən viçetin dilini öyrənməyə başladım. Viçet təxminən teleqram kimi bir app-dir. Çindəkilərin əli-ayağıdır bu app.

İlk dərsimi keçdikdən sonra yavaş-yavaş həyat eşqim qayıtmağa başladı. Ancaq zamanla tələbələrin hamısının dərsə maraq göstərmədiyini görürdüm. Qrupda 35-45 arası tələbə olurdu. Bu qədər tələbənin hamısının keyfiyyətli şəkildə dərsi mənimsəməsini gözləmirdim əlbəttə. Düşündüm ki, imtahanda kəsilib yarı-yarıya azalacaqlar və qalanlara dərs keçmək daha asan olacaq. Ancaq gözlədiyim kimi olmadı. Qış imtahanı sonrası bütün tələbələrin yenidən dərsə girdiyini gördüm. Bunun səbəbini soruşdum və məlum oldu ki, o tələbələrin imtahanı necə keçdiyini heç kim bilmir.

Yeməkxanalarında hər nə qədər ucuz və keyfiyyətli yemək verildiyini iddia etsələr də, yeməklər qətiyyən keyfiyyətli deyildi. Buna görə də, yeməkxanada yemək istəmirdim. Marketə gedib, alış-veriş etmək qərarına gəldim. Assistentim dərsdəydi, dərsin bitməsini gözləməyə səbrim çatmadı. Marketə tək getdim. İçəri girdim, olduqca böyük, ucu-bucağı görünməyən bir market desəm, yanılmaram. Səbətimi aldım əlimə və başladım marketdə gəzməyə.

Bir saat yarım marketdə gəzsəm də, hər şeyin adı çin heroqlifləri ilə yazıldığından istədiklərimi tapa bilmirdim. Nəhayət, satıcı xanıma yaxınlaşdım və bildiyim bütün dillərdə südün yerini soruşdum. Qadın anlamadı. Bu dəfə çarəsiz qalıb, səbəti əlimdən yerə qoydum, hər iki əlimin işarə barmağını başıma qoyub inək buynuzlarına oxşatdım və inək kimi "mö" elədim, daha sonra içmək şəklində hərəkət etdim. Satıcı nə istədiyimi anlayıb, gülərək getdi. İki dəqiqə sonra əlində bir paket duz ilə qayıtdı. Hirsimdən duzu alıb oradan uzaqlaşdım. Sonra assistentim ilə getdim və müşkülümü həll etdim.

Bundan sonra assistentim telefonuma tərcümə app-i yüklədi. Bu app ilə artıq istədiyim zaman rahatlıqla çinlilərə dərdimi izah edirdim. Ancaq yenə də fərqində idim ki, çincə öyrənmək lazımdır. Rus dilində özünoxu kitabı tapdım və oradan çincə öyrənməyə başladım. Təxminən 150 heroqlif öyrənmişdim və bazarda rahatlıqla endirim, alış-veriş edə bilirdim. Restoranlarda menyudan sifariş verərkən, artıq yeməyin tərkibinin nə olduğunu öyrənə bilirdim. Doğrusu, mənim yemək ilə bağlı bir problemim yox idi. Çinə getmədən öncə Fransada Çin mətbəxi ilə tanış olmuşdum. Daha sonra İsveçdə Türkay Arifqızı sayəsində Çin mətbəxi ilə daha geniş şəkildə tanış olmuşdum və çox bəyənmişdim. Çində də ilbiz və donuz əti xaricində digər yeməkləri yeməkdən çəkinmirdim. Xüsusilə, İran və türkiyəli müəllim yoldaşlarım sayəsində Çin

mətbəxinin gözəlliklərini kəşf edirdim. Demək olar ki, iki gündən bir restoranlara gedir, olduqca ucuz qiymətə çox ləzzətli yeməklər yeyir, sonra sakit küçələrdə gəzişir, söhbətləşir, yataqxanaya qayıdırdıq.

Universitetdə tez-tez konsert təşkil edilirdi. Konsertlərə də müəllim və tələbələri zorla yığırdılar. Bu konsertlər bir az yorucu olurdu. Çünki konsertdə çıxışlar olurdu və onlar çincə idi, tərcüməsi aparılmırdı və mən heç nə anlamırdım. Ən pisi də iclaslar idi. Bütün iclaslara müəllimlər zorla gətirdilir, arxa sırada düzülür və iclas iştirakçılarını dinləməyə məcbur edirdilər. İclas Çin dilində idi. Buna görə düşündüm ki, iclasdakı 2 saat boşa keçəcək zamanımı kitab oxuyaraq dəyərləndirim, ancaq dekan bildirdi ki, olmaz. Növbəti dəfə qulaqlığımı taxıb mahnı dinləmək istədim, yenə dekan dedi ki, olmaz. Yəni, heç olmasa, iclasda gedən söhbətin nə olduğunu anlasam, yəqin ki, bu qədər sıxılmaram - deyə düşündüm. Dekandan rica etdim ki, iclaslarda ingiliscə tərcümə də olsun. Dedi ki, bu mümkün deyil, əlavə işdir və s. Artıq öz başımın çarəsini özüm qılmalı idim.

Zamanını və fürsətini gözlədim ki, etirazımı bildirim. İstədiyim fürsət gəlmişdi. Şəhər meri ilə iclas olacaqdı. Hər zamankı kimi yenə bizi arxa sıraya düzüb, özləri dəyirmi masa arxasına keçib, iclas apardılar. İclasda, səhv etmirəmsə, portuqalca, ispanca, rusca danışılırdı və bu dillərdən çincəyə çevirirdilər. İngiliscə isə yox idi. Merə söz verdilər, danışdı, oturdu. Əlimi qaldırdım. Tam fürsət idi. Təəccüblə mənə söz verdilər. Durdum və etiraz etdim ki, biriniz portuqalca, biriniz ispanca, digəriniz başqa dildə danışdınız, çincəyə çevrildi və bir-birinizi anlayıb əl çaldınız. Mən Azərbaycandan gəlmiş müəlliməm, dilim türkçədir, əlavə olaraq ingiliscə bilirəm, çincə bilmirəm. Mənə maraqlıdır ki, bu otaqda sizin danışdıqlarınızın mənim anlamağıma ehtiyac yoxdursa, burda nə işim var? Artıq bir saat yarımdır ki, siz öz aranızda danışırsınız və mən heç nə anlamıram. Sükut çökdü. Dekan qıpqırmızı oldu. Məni bu qədər əzməyə çalışan bir dekanın haləti önəmli deyildi. Bu zaman rus xanım döndü mənə və ingiliscə dedi ki, burdakı insanların dilinə sayğısızlıq etməməlisən. Sən anlamırsan deyə niyə etiraz edirsən? Xanıma olduqca sakit bir səs tonu ilə özü də rusca dedim ki, mən azərbaycanlıyam və mənim kiçik ölkəmdə otuza yaxın xalq və etnik qrup yaşayır. Biz türklər onları hədsiz çox sevir, sayğı göstəririk. Onları Rusiya kimi assimilə etməyə çalışmırıq. Qadın qızardı və "bunu iclasdan sonra müzakirə edərik "- dedi. Mən başımla razılıq işarəsi verib, bu dəfə ingiliscə heç bir dilə qarşı olmadığımı, bütün dilləri sevdiyimi, sadəcə olaraq iclası anlamağımın önəmli olmadığını düşünürsünüzsə məni iclaslardan azad etməyinizi, ya da ingiliscə tərcüməçi qoymağınızı rica edirəm - dedim.

İclas tamamilə dayandı və təcili tərcüməçi tapdılar, iclasın davamı ingiliscə oldu. Məlum oldu ki, mer universitetdə yeni açılmış kitabxana və kitabxanaya müxtəlif ölkələrdən gətiriləcək kitablarla maraqlanırmış. İclasdan sonra sərgi var idi. Mən özəlliklə rus xanımın həndəvərində gəzdim ki, gəlsin müzakirəsini aparsın. Ancaq o üzümə xəfif gülümsəyib, yanımdan keçdi. O gündən sonra bir daha heç bir konsert, heç bir iclas ingiliscə tərcüməsiz olmadı. İngilis dilli müəllimlərə sayğı duyuldu. Ən önəmlisi, məni heç bir iclasa məcbur etmədilər. Mənim üçün maraqlı olana getdim, maraqlı olmayana getmədim.

Bu hadisənin başqa bir bənzərini də ilk maaşı alarkən yaşadım. Təxminən 2019-cu ilin oktyabr ayından rəsmi işləyirəm və o vaxtdan hələ bir dəfə də olsun maaş almamışdım. Bunun çox qürurqırıcı olduğunu düşünmüşəm. İndi Çində bank sistemi çətin olduğundan, maaşımızı əldən almalı idik. Üstəlik, kassir də gecikirdi. Universitetin müəllimləri saat yarımdır ki, kassiri gözləyir, o isə gəlmək bilmir. Misirli müəllimə əsəbiləşdi və dedi ki, bu mühasib həmişə gecikir. Mən vəziyyəti anladım. Kassir istəyir ki, bütün müəllimlər gəlsin, növbə yaransın, o da qısa bir vaxtda işini görüb getsin. Sakitcə assistentimə dedim ki, mənim maaşımı kassirə verərsiniz, istirahətini bir az uzun eləsin. Getdim otağıma. Axşam tərəfi assistentim maaşımı bir zərfin içində gətirib mənə verdi və kassirin üzrxahlıq etdiyini dedi. Sonra maaş alarkən kassir bir daha gecikmədi.

Bu cür toqquşmalarla yanaşı, çinlilər çox maraqlı insanlar idi. Yolda gedərkən insan özünü məşhur biri kimi hiss edirdi. Hamı dönüb baxır, gəlib şəkil çəkdirmək istəyirdi. Mağazaya girirdim, satıcılar öncə şəkil çəkdirib, sonra nə istədiyimi soruşurdular. Bəzən alıcılar da gəlib şəkil çəkdirib gedirdi. Bu hal o qədər adiləşmişdi ki, mənə əgər bir az diqqət göstərməsələr, boşluğa düşürdüm. "Görəsən nə olub ki, şəkil çəkdirmək istəmirlər" - deyirdim. Günlər beləcə axıb gedirdi.

Bir gün Shijiazhuang`dan (Şicacuanq) Pekinə qatarla getməli oldum. Olduqca həyəcanlıydım. Dünyanın iqtisadi nəhənginə çevrilməkdə olan Çinin necə gözəl qatarı olacağını düşünürdüm. Video-filan çəkməyə hazırlaşmışam. Qatara minəndə gördüyüm mənzərə məni heyrətləndirdi. Qatar sınıq-salxaq, köhnə-kürüş... içərisi dəhşətli qarışıqlıqdır. Necə deyərlər, it yiyəsini tanımır. Çantaların hamısı ortalıqdadır, çünki bir-iki

yer var, onlar da artıq tutulub. Nə isə, güc-bəla yerimi tapdım. Bir qadın oturub yerimdə. Birtəhər qadını durğuzub oturdum.

Oturacaqlar o qədər dar və narahat idi ki, 6-7 saatlıq yolda belimin ağrısından öləcəm - deyə düşündüm. Bu ayağa qaldırdığım qadın oturacağımın başında ayaqüstə durmağa davam etdi. Elə təzəcə qatardan mənzərəni seyr etməyə başlayırdım ki, qadın gözünə döndüyüm başladı danışmağa. Durmaq bilmədən 6 saat danışdı. Təsəvvür edin, birisi başa düşmədiyin bir dildə başının üstündə durub danışır. Qadın yorulub fasilə verəndə, reklamçılar qışqıra-qışqıra danışırdılar. Onda qadının atasına rəhmət oxuyurdum.

Əl-qərəz başımı hara qoyum bilmirdim. Birdən qadının həmsöhbəti mənim gözümü göstərib, narahat ifadə ilə nəsə dedi. Mən də ki, ömrü boyu güzgüdən qaçdığım üçün üstümdə güzgü daşımıram və nə baş verdiyini bilmədim. Danışan qadın çantasından olduqca estetik bir güzgü çıxarıb, mənə göstərdi. Gözüm qan çanağına dönmüşdü. Bir-birilə danışıb yəqin ki nədən belə olduğumu müzakirə edirdilər. Bəs 6 saatdır 4 səs tonu ilə (çincə 4 tondan ibarətdir) danışıb qulağımı cırmalayanda belə olacaq da. Nə isə, bunlar çantalarından termos, stəkan çıxarıb, mənə bir çay verdilər. Mən o çayı içdim, özümə gəldim. Nə qədər soruşdumsa, qadınlar çayın içində nə olduğunu mənə izah edə bilmədilər. Çayımı bitirəndə, gəldim çatdım Pekinə.

Özbək müəllim yoldaşım çincə bilirdi, ancaq başqa kupedə idi. Nə isə, gəldi yanıma, başıma gələni danışdım, sən demə, mənim vəziyyətim daha yaxşı imiş. O, ümumiyyətlə, yerində otura da bilməyib.

Çinlilərin çayları gerçəkdən məşhurdur, deyəsən. Bir dəfə yataqxanada olduqca dəhşətli bir sancıdan ölürdüm. Dərsə gedə bilməmişdim və yatağımda uzanmışdım. Qapım döyüldü, açmadım. Sən demə, yataqxana işçisi imiş, onda olan ehtiyat açar ilə qapımı açdı və mənim halımı görüb çox üzüldü. Gedib mənə bir çay gətirdi. Əslində, çay dediyim bizim birdəfəlik üçü birində neskofelərimiz kimi paketlənmiş toz idi. Qaynar suya töküb verdi, içdim. 5 dəqiqə sonra sakitləşdim, yaxşılaşdım. Burada qeyd edim ki, Çinə gedərkən tez-tez başağrısı çəkən, təzyiqi qalxan, ağrılar yaşayan birisi idim, qayıdanda isə bunların hamısından qurtulmuşdum.

Əgər qürbət duyğusunun nə olduğunu anlamaq istəyirsinizsə, mütləq gedib Çində yaşayın. Yeməyindən tutmuş geyiminə, məişətindən tutmuş havasına, suyuna, torpağına qədər çox fərqli bir ölkədir. Bunu getməzdən öncə də bilirdim, amma bu dərəcədə dərindən hiss edəcəyimi düşünməmişdim. Yenə də vətən həsrəti çəkərəmsə, saz çalaram deyib - sazımı da özümlə aparmışdım. Bir gün konsert verdim. Cəmi 4-5 hava ilə. "Baş dübeyti", "Sarıtel", "Azaflı dübeytisi", "Sarı gəlin", "Ay ana" və "Sıx ormanda gəzən dilbər" mahnılarını, çox az da "Yanıq Kərəmi" havasını ifa edə bilirəm. Bunu təkrarlamağımı istədilər, ancaq ikinci dəfə etiraz etməli oldum, çünki bunlardan başqa hava bilmirdim və təkrarlamağa utandım. Bundan sonra mütəmadi olaraq otağımda özüm üçün qısa konsertlər verməyə başladım.

Bir həftə çalmadım. Bir gün qapım döyüldü. Nigeriyalı müəllim döymüşdü qapımı. Məndən yenə çaldığım instrumenti çalmağımı rica edirdi. Təəccüb içində idim. Sən demə, hər axşam özüm üçün çaldığım sazın səsini müəllimlər yığışıb dinləyirmiş. Onları otağıma dəvət etdim və bildiyim havaları çalmağa başladım. Dinləyir, saza toxunmağa çalışır, video çəkirdilər. Mənim bütün vücudumu qürur hissləri bürüyürdü. Onlara izah etdim ki, əslində mən həvəskar, özü üçün sazı az-çox çalan birisiyəm. Sazın peşəkarları başqadır. Saz sənəti haqqında geniş danışdım, aşıqlarımızın saz ifasını onlara dinlətdim. Heyran qalıb aşıqların adlarını qeyd etdilər ki, sonra özləri dinləyə bilsinlər. O gündən sonra yavaş-yavaş onlarla qaynayıb-qarışdım. Saz musiqisi bizi yaxınlaşdırdı.

Şicacuanq`dan 2019-cu il yanvarın 8-i saat 21:00-da çıxdım. Evlənmək üçün sadəcə bir aylıq gəlirdim. Geri qayıdacaqdım. Şəhərdən çıxan son qatara minib, ölkədən ölkəmizə çarter olmayan son uçuşla uçacağım ağlıma gəlməmişdi. Çünki geri qayıtmalı və Böyük Çin səddini ziyarətə getməli idim hələ. Heyhat. O çıxan çıxdım Çindən. Dünyanı ağuşuna alıb, sanki sunami kimi insanların üzərindən keçən "Covid-19" Çinin yollarını da bağladı.

Ölkəmə qayıtdım. Toyumu elədim, Türkiyəyə getdim - orada da oğlan toyu oldu.

Hal-hazırda Çinin Hebei Foreign Studies Universitetində onlayn müəllimə işləyirəm. Hələ də Çin ilə əlaqəm var. Bu da çox normaldır. Çin kimi köklü mədəniyyəti olan bir ölkə əlaqələrini də mühafizəkarlıqla qorumağı bacarır.



# ERASMUS-DAN ƏLİBOŞ DÖNMƏYƏCƏKSİNİZ

# YOU WILL BRING SOMETHING SPECIAL BACK AT THE END OF YOUR ERASMUS

Salam, mən Əli Mehdiyev Xəzər Universitetinin Kompüter mühəndisliyi ixtisasının 2-ci kurs tələbəsiyəm. Türkiyənin Manisa Celal Bayar Universitetində keçirdiyim Erasmus+ tələbə mübadiləsi təcrübəmi bölüşməkdən böyük məmnunluq duyuram!

Mənim mübadilə dövrüm 2021-2022 -ci tədris ilinin yay semestrinə təsadüf etdi (2022-ci ilin fevralından 2022-ci ilin iyununa qədər). Bu, insanın həyatında əldə edə biləcəyi ən yaxşı təcrübələrdən biri idi, çünki həm təhsil, həm də kampusdakı ab-hava Xəzər Universitetindən fərqlidir və mən həm universitetdə, eləcə də universitetin qonaq evində çoxlu əcnəbi tələbələrlə tanış oldum.

Müxtəlif ölkələrdən olan insanlarla görüşmək və onlarla eyni məkanda bir araya gəlməyin bəzi üstünlükləri var idi. Birincisi, mən ingilis dilində səlis danışıq qabiliyyətimi yaxşılaşdırdım, çünki ondan başqa danışa biləcəyimiz ortaq dilimiz yox idi. İkincisi, bu, xarici tələbələrdən yeni millətlər

Hello, I am Ali Mehdiyev, 2nd course Computer Engineering student at Khazar University. It is my great pleasure to share my Erasmus+ student exchange experience at the Manisa Celal Bayar University of Turkey! My exchange period is the 2021-2022 summer semester (from February 2022 to June 2022). It was one of the best experience that a person can have in their life because both education and campus vibe is different from Khazar University, and I met many foreign students both at the university and at the university guesthouse. Meeting people from various countries and getting together with them in the same location had some advantages. Firstly, I improved my English language accent and fluency, since we didn't have any other language in common. Secondly, it is a great opportunity to learn about new nationalities from foreign students and present information about your country.

haqqında öyrənmək və ölkəniz haqqında məlumat təqdim etmək üçün əla fürsətdir.

Ən mühüm üstünlük ondan ibarətdir ki, bütün Erasmus tələbələri şəhərdə yeni olduqları üçün onlarla söhbət etmək və şəhərdə vaxt keçirmək daha asandır. Manisaya gəldikdə isə, onun təbiəti çox möhtəşəmdir, hər yerdən dağların zirvəsini görmək olur. İnsanlar da çox mehriban və qonaqpərvərdirlər, xüsusən də Azərbaycandan olduğunuzu biləndə. Tələbə kartınızı aldığınız zaman nəqliyyat ucuz başa gəlir və onun istifadəsini asanlaşdıran qrafiki var.

Manisadan bir az aralıda avtobusla gedə biləcəyiniz böyük tarixi yerlər var. Bunlardan biri də Manisadan təxminən 30-40 dəqiqəlik məsafədə yerləşən və çox böyük olan İzmirdir. İzmiri ziyarət etmək istəyirsinizsə, həm qatar, həm də avtobusdan istifadə edə bilərsiniz. İzmirin "Efes", "Teleferik" və s. kimi ziyarət üçün gözəl yerləri var.

Son olaraq qeyd edim ki, xərclərdən narahat olmaq lazım deyil, çünki Erasmus+ Proqramı bütün mübadilə dövründə bəs edəcək təqaüd verir. Manisaya gəldikdən bir həftə sonra təqaüdümün 80%-ni və ordan qayıtmazdan bir həftə əvvəl 20%-ni aldım. Hər kəsə həyatında ən azı bir dəfə bu mübadiləni yaşamağı çox tövsiyə edirəm, bu, onların fikrini dəyişəcək.

**Əli Mehdiyev,**
*Xəzər Universitetinin tələbəsi*

The most important advantage is that, since all Erasmus students are new in the city, it's easier to make conversation with them and hang out in the city when you arrive in the city. When we talk about Manisa, its nature is very great, and you can see the top of mountains from all places. People are also very friendly and hospitable, especially when they know you're from Azerbaijan. Transport is cheap when you get your student card, and it has a schedule that makes it easier to use.

There are great historical places a little bit far from Manisa which you can take the bus and visit those visiting places. One of them is Izmir which is situated approximately 30-40 minutes far from Manisa and it is very huge. You can take both the train and bus if you wish to visit Izmir. Izmir have also great places for visiting like "Ephesus", "Teleferik" and so on. One last thing, you don't need to worry about expenses, because Erasmus+ Programme provides a grant that covers the whole exchange period. After one week that I arrived in Manisa, I received 80% of my scholarship and 20% in the last week before I returned to my sending university. I highly recommend everyone to experience this exchange at least once in their life, it will change their mind.

**Ali Mehdiyev,**
*Khazar University student*





# "HƏLL OLUNMAYAN MÜBAHİSƏ QALMAYACAQ!"

*"Ədalət" qəzetinin 26 avqust 2022-ci il tarixli nömrəsində və internet səhifəsində "Xəzər"in mediasiya üzrə MBA tələbəsi Qasım Şaliyevlə dərc olunmuş müsahibəni oxucularımıza təqdim edirik.*

Bütün dünyada, bir qayda olaraq, insan hüquqları və hüquq elmi bütün ölkələr üçün ən mühüm nüanslardan biridir. Bugünkü mövzumuz son bir il ərzində aktuallıq daşıyan mediasiya və mediatorluq peşəsi ilə əlaqəlidir. Müsahibimiz Mediasiya Şurasının üzvü və Bakı 15 saylı Mediasiya Təşkilatının direktoru Qasım Şaliyevdir.

**- Qasım bəy, əvvəlcə istərdim ki, özünüz barədə oxucularımıza bir qədər məlumat verəsiniz.**

- Mən Qasım Şaliyev 2001-ci ildə Türkiyə Respublikasının nüfuzlu elm ocaqlarından biri olan Ankara Universitetinin Hüquq fakultəsindən məzun olmuşam. Vətənə qayıdaraq, bir müddət hüquq şirkətlərində hüquqşünas kimi fəaliyyət göstərdikdən sonra son 10-15 il ərzində iqtisadiyyatın fərqli sahələrində böyük layihələri icra etmiş holdinq, şirkətlər qruplarında hüquq sahəsinə rəhbərlik etmişəm. Bunlara Modern Şirkətlər Qrupu və Yeni Həyat Şirkətlər Qrupunu misal göstərə bilərəm. 2018-ci ilin may ayından Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü və 2020-ci ilin oktyabr ayından isə Mediasiya Şurasının üzvüyəm. 2021-ci ilin noyabr ayında Beynəlxalq Master Mediasiya Federasiyası tərəfindən Mediasiya üzrə beynəlxalq məsləhətçi diplomuna layiq görülmüşəm. Hazırda Xəzər Universitetinin mediasiya üzrə MBA tələbəsiyəm.

**- Ümumi olaraq Mediasiya termini barədə məlumat verməyinizi istərdim.**

- Mediasiya tərəflər aralarındakı mübahisəni onların həqiqi maraq və ehtiyaclarına uyğun həll etmək üçün üçüncü şəxsin iştirakı ilə apardıqları danışıqlar prosesidir. Mediasiyanı fərqləndirən əsas məqam budur ki, buradakı üçüncü şəxs neytral və qərəzsiz olaraq nə tərəflər, nə də mübahisə predmeti ilə əlaqəsi yoxdur. Onun öhdəliyi tərəflər arasından ünsiyyətin, kommunikasiyanın bərpa olunmasında və mübahisənin həllində produktiv müzakirələrin aparılmasında vasitəçilik etmə ilə ifadə olunur. Mediasiya da mahiyyətcə adi həyatda rastlaşdığımız danışıqlardır, lakin xüsusi strukturu olan bir danışıqlar prosesidir. Mediator da məhs bu prosesi aparır və nəticədə tərəflər öz aralarındakı mübahisəni necə həll edə biləcəklərini qarşılıqlı sivil formada müzakirə edirlər.

Təcrübələrimizə əsasən maraqlı bir məqama toxunmaq istəyirəm. Bəzən kənardan uzlaşılması qeyri-mümkün görünən mübahisələr müzakirələrin gedişində elə həll formaları tapır ki, heyrətlənməmək mümkün deyil. Çünki mediasiyada tərəflər emosianal yanaşmaları buraxıb, müzakirələrdə səslənən təkliflərin onların həqiqi maraqlarına necə cavab verəcəyini düşünürlər və bu əsnada mübahisədən çıxış yolu olacaq daha səmərəli sövdələşmələrin şahidi oluruq.

Məhkəmə və arbitrajdan fərqli olaraq burada nə razılıq olacaqsa, buna üçüncü şəxs - mediator yox, məhz mübahisə tərəfləri özləri qərar verirlər. Bağlanacaq barışıq sazişləri hər iki tərəfin iradəsinə uyğun olduğundan heç kəs narazı qalmır və bu sazişlər daha tez icra olunur. Məhkəmədə qaldırılan iddia üzrə verilən qanuni qərardan çox zaman bir tərəf, bəzən tərəflərin ikisi də narazı qalır və bütün instansiyalara şikayət edirlər. Mediasiyada isə hər iki tərəf qazanmış hesab edir, nəticə etibarilə mediasiyada kimin haqlı-kimin haqsız olması müzakirə olunmur, mübahisənin həllinin mediatorun hansı formada fikirləşməsinin də prinsipial əhəmiyyəti yoxdur, çünki mübahisə üzrə mediator hər hansı qərar vermir. Bu baxımdan mediasiyanı xüsusi strukturu olan

effektiv danışıqlar prosesi adlandıra bilərik.

**- Ölkəmizdə Mediasiyanın inkişafı ilə bağlı nə kimi addımlar atılmışdır?**

- Ölkəmizdə mediasiyanın inkişafı və bu sahədə islahatların intensiv vüsət alması ilkin olaraq, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Cənab Prezidentimizin 2016-cı il tarixli Fərmanından irəli gəlir. Ölkə başçısı tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə kiçik və orta sahibkarlığın subyektləri arasında mübahisələrin alternativ həll yollarından biri kimi mediasiya nəzərdə tutulmuşdur. Davamında 2019-cu ilin mart ayında "Mediasiya haqqında qanun" qəbul edildi. Həmin qanundan sonra Nazirlər Kabineti "Mediasiya prosesinin aparılması qaydaları" daxil olmaqla bir neçə önəmli qərar qəbul etmişdir. Bununla da bir çox ölkədən fərqli olaraq, qısa müddət ərzində qanunvericilik bazası möhkəmlənmişdir. Nəticə etibarilə, ölkəmizdə mediasiya prosesinin rəsmi olaraq tətbiqinə isə, 1 iyul 2021-ci ildən başlanılıb.

Mediasiya Şuramızın açıqladığı məlumata görə, ötən bir il ərzində Bakı şəhərində 14, Naxçıvan MR, Gəncə, Lənkəran, Şəki, Cəbrayıl və Qazaxda 1 təşkilat olmaqla cəmi 20 təşkilat fəaliyyət göstərməyə başlamışdır. Ölkə üzrə 200-dən çox aktiv mediator xalqımıza mediasiya xidmətləri təqdim etməkdədir. Bu məsələ ilə bağlı Nazirlər Kabinetinin 19.08.2022-ci il tarixli qərarını da xüsusi qeyd etmək istərdim. Bu inqilabi qərar nəticəsində bütün hallarda mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxslərin, yəni ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin müvafiq yerli qurumlarında və "DOST" mərkəzlərində işsiz kimi qeydiyyatda olan şəxslərin mediasiya xərcləri dövlət büdcəsində bu məqsədlər üçün Mediasiya Şurasına nəzərdə tutulmuş vəsaitlər hesabına ödəniləcək. Bu qərar aztəminatlı insanların mediasiya xidmətlərindən lazımi qaydada yararlanması üçün çox əhəmiyyətli addım oldu ki, bu da dövlətimizin Mediasiya Şuramızın fəaliyyətinə verdiyi xüsusi dəyəri göstərir.

**-Qüvvədə olan qanunvericiliyə görə, hansı işlər mediasiya prosesinə cəlb olunmalıdır?**

-"Mediasiya haqqında" Azərbaycan Respublikası qanununa əsasən ailə, əmək münasibətləri, kommersiya işləri, digər mülki münasibətlər və inzibati münasibətlərdən irəli gələn mübahisələrə mediasiya şamil olunur. Xüsusilə son bir il ərzində cəmiyyətdə diskussiya mövzusu olan ilkin mediasiya sessiyası isə ailə, əmək münasibətləri və kommersiya işləri üzrə məhkəmədən əvvəl tərəflərin iştirakı məcburi olan bir prosesdir. Lakin qeyd etmək istərdim ki, istənilən mülki xarakterli mübahisənin həlli imkanları mediasiyada müzakirə oluna bilər. Belə ki, həyatımızın istənilən anında mülki münasibətlərə giririk, məsələn, kreditlə evimizə aldığımız televizorda keyfiyyət problemi yarandığına görə mağaza ilə mübahisə yaşayırıq, borc verdiyimiz pulun geri qaytarılmamasına görə dostumuzla küsülü oluruq, bütün bu hallar mülki mübahisələrə misaldır. Biz - 15 saylı Mediasiya Təşkilatı olaraq da deyirik ki, "nə mübahisəniz varsa, gəlin danışaq, mediasiyada müzakirə edək və maraqlarınıza uyğun nəticə əldə edək." Təsadüfi deyil ki, "həll olunmayacaq mübahisə qalmayacaq" devizi ilə bütün mülki mübahisələrin mediasiya masasında müzakirə olunacağı inancındayıq.

**- Mediasiya prosesi tərəflərə hansı üstünlükləri verir? Niyə insanlar mübahisələrinin mediasiyada həllini seçməlidir?**

- Öncə qeyd edim ki, mediasiyanı seçmək məhkəməyə müraciəti istisna etmir. Yəni tərəflər hər zaman mediasiyadan əvvəl də, sonra da məhkəməyə müraciət edə bilərlər. Sadəcə biz mübahisə tərəflərinə məhkəməyə getməmişdən əvvəl mediasiyanın səmərəli üstünlüklərindən istifadə etməyi tövsiyə edirik. Mediasiyanın insanlara ən böyük faydalarından biri vaxta qənaətdir. Azərbaycanda hazırkı prosesual qanunvericiliyə görə, mülki mübahisələr üzrə məhkəmə icraatını üç instansiya üçün nəzərdə tutsaq, ortalama 12 ay vaxt tələb edir. İcraat çərçivəsində ekspertiza təyin olunanda məhkəmə araşdırması daha uzun müddətdə gedə bilir. Mediasiya masasında müzakirənin müddəti isə saatlarla ölçülür. Nadir hallarda proses növbəti günə çəkə bilər, bu da çox çəlis və mübahisəli işlərdə olur. Ümumi müddətin 30 gün olması kifayət qədər açıqlayıcıdır.

Digər tərəfdən, mediasiyada necə razılıq olacaqsa, bunu mediator yox, yalnız tərəflər özləri razılaşdırır. Nəticə etibarilə mübahisə və onun həlli tərəflərin öz nəzarətində qalır, razılıq şərtləri hər iki tərəfin istəyinə uyğun olur.

Daha bir məqam, mübahisənin qısa müddətdə həlli imkan verir ki, tərəflər arasında gərginlik çox uzun çəkmədiyindən münasibətlər korlanmır və ünsiyyət qalır. Məsələ daha yaxşı anlaşılsın deyə yerli mediasiya

təcrübəsindən misal vermək istərdim. İki ilə yaxın davam edən kommersiya mübahisəsi üzrə keçirilən mediasiya sessiyasında ilk öncə kifayət qədər sərt mübahisələrə şahid olduqdan sonra hər iki tərəf bu vəziyyətdən bezdiklərini bildirdi. Bunu fürsət bilən mediator ustalıqla xüsusi ünsiyyət texnikalarından istifadə edərək, müzakirələri ayrı-ayrı otaqlarda davam etdirdi və nəticədə barışıq sazişi imzalandı. Daha fərqlisi də budur ki, iki il "dalaşan" tərəflər yenidən əməkdaşlıq barədə razılaşdılar və iş münasibətləri davam etməyə başladı. Mediasiya məhz budur, mübahisə həllini tapır, qırılan ünsiyyət bərpa olunur və tərəflər maraqlarına uyğun şəkildə gələcəyə köklənir.

Digər üstünlük, az öncə də qeyd etdiyim kimi, tərəflərin qəliz hüquqi biliklərə və ya prosedurları bilməyə ehtiyacı qalmır. Gündəlik həyatda olduğu kimi mediasiyada danışıqlar aparırlar. Bu da səmimi atmosferin yaranmasına səbəb olur ki, mediatorun köməkliyi ilə tərəflər həll yolları barədə daha real təklif səsləndirirlər və nəticə yönümlü sövdələşirlər. Burada vacib bir qeydi də nəzərə çatdırmaq istərdim ki, mediasiya üzrə ödənilən xidmət haqları da həll olunan mübahisənin həcminə, digər ifadə ilə əldə edilən faydanın dəyərinə görə kifayət qədər azdır.

**- Uzun müddətdir ki, bu sahənin mütəxəssisi kimi çalışırsınız. Bu mənada mediasiyanın hansı sahələri sizin üçün daha maraqlıdır?**

- Bakı 15 saylı Mediaisiya Təşkilatı olaraq qüvvədə olan qanunvericilik çərçivəsində nəzərdə tutulan bütün sahələr üzrə peşəkar mediasiya xidmətləri təqdim edirik. İstər tərəflərin emosional vəziyyətinin daha öndə olduğu ailə və əmək mediasiyası, istər də iqtisadi maraqların xüsusilə diqqətdə olduğu kommersiya və mülki işlər üzrə mediator heyətimiz lazımi təlimləri uğurla başa vurmuşdur. Həm nəzəri bilgilər, həm də əvvəlki peşəkar qabiliyyətləri heyətimizə imkan verir ki, bütün sahələr üzrə yüksək səviyyədə mediasiya xidmədləri təklif edək. Sualınızı şəxsiləşdirsəm, uzun müddət böyük şirkətlərin hüquq rəhbəri kimi əmək fəaliyyətində olmam, habelə vəkil kimi mürəkkəb biznes əməliyyatlarını müşayiət etməmin məntiqi nəticəsidir ki, kommersiya və mülki mübahisələrin mediasiya yolu ilə həllinə xüsusi maraq göstərirəm.

**- Son olaraq oxucularımıza nə demək istərdiz?**

-Bakı 15 saylı Mediasiya Təşkilatı olaraq tövsiyə edirik ki, vətəndaşlarımız məhkəməyə müraciətdən əvvəl mülki mübahisələrinin mediasiyada müzakirə imkanlarını nəzərdən keçirsinlər. Mediasiyada nəticə alınmasa, məhkəməyə hər zaman müraciət etmək olar. Lakin qanundakı son dəyişikliklər bir daha bunu deməyə əsas verir ki, mediasiyanın ölkəmizdə uğurlu gələcəyi var. Təsadüfi deyil ki, ölkəmizdə mediasiya qanunvericiliyi üzrə normativ aktlar yaxın ölkələrdən daha tez qəbul olunaraq, tətbiqinə başlanıldı. Misal, mediasiyada bağlanılmış barışıq sazişlərinin icrası üzrə mülki prosessual qanunvericiliyə önəmli dəyişikliklər edildi və daha qısa müddətdə -10 gün ərzində təsdiq olunub, məcburi icra yönəldilmə imkanları yaradıldı. Bütün bunlar mediasiya institututun ölkəmizdə uğurlu tətbiqi üçün dövlətimizin atdığı önəmli addımlardır. Bu baxımdan 15 saylı Mediasiya Təşkilatı olaraq, bütün mülki mübahisələri müzakirə edərək, tərəfləri razı salacaq həll yollarını tapmağa qapımız hər zaman açıqdır. Bir sözlə, gəlin danışaq, mübahisəni necə həll edə biləcəyimizə dair seçimləri birlikdə nəzərdən keçirək. Hər zaman təkrarladığımız kimi, mediasiyada kimin haqlı, kimin haqsız olduğu deyil, ortaq "qızıl" nöqtə axtarılır, bu da tərəflərin öz iradəsi ilə müəyyən edilir. Təşkilatımız öz peşəkar mediator heyəti ilə bu məsələdə əzmkarlıqla vətəndaşlarımızın qulluğunda durmağa hazırdır. Son olaraq bir daha, "həll olunmayan mübahisə qalmayacaq!" deyirik.

*Söhbətləşdi*: **Bünyamin Bünyadzadə**

***https://adalet.az/az/posts/detail/hell-olunmayan-mubahise-qalmayacaq-musahibe-1661518668***

## INTERVIEW WITH KHAZAR UNIVERSITY MEDIATION MBA STUDENT IN "ADALAT" NEWSPAPER

In the August 26, 2022, issue and website of "Adalat" newspaper, an extensive interview with Gasim Shaliyev, a member of the Mediation Council and director of Baku Mediation Organization No. 15, MBA student in mediation of Khazar University, was published.

In the interview, Gasim Shaliyev gave detailed information about the term and concept of "mediation", the steps taken regarding its development in Azerbaijan, the cases that will be involved in the mediation process according to the current legislation, and optimistically stated that "There will be no unresolved disputes!"

The interview was conducted by Bunyamin Bunyadzadeh.

***https://adalet.az/az/posts/detail/hell-olunmayan-mubahise-qalmayacaq-musahibe-1661518668***



## UniLab LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AVSTRİYANIN IMC KREMS TƏTBİQİ ELMLƏR UNİVERSİTETİNƏ SƏFƏR

Sentyabrın 6-10-da Xəzər Universitetinin əməkdaşları UniLab layihəsi çərçivəsində Avstriyanın Krems şəhərindəki IMC Krems Tətbiqi Elmlər Universitetində səfərdə olublar. Səfərdə universitetin Komputer texnologiyaları şöbəsinin müdiri Fərid Musayev, Karyera mərkəzinin koordinatoru Elnurə Əhmədzadə, İnkişaf ofisinin layihə rəhbəri Jalə Rzayeva və universitetin İqtisadiyyat və menecment fakultəsində maliyyə ixtisası üzrə təhsil alan tələbəsi Xəqan Nurullayev iştirak ediblər.

Universitetin əməkdaşları IMC Krems Tətbiqi Elmlər Universitetində 3 günlük görüşdə iştirak ediblər. Görüşdə iştirakçıları universitetin nümayəndələri qarşılayıb. Görüşdə layihə ilə bağlı görülmüş işlər və gələcək planlar müzakirə edlib. Səfər çərçivəsində nümayəndələr IMC Krems Tətbiqi Elmlər Universitetinin Karyera mərkəzi və karyera platforması, həmçinin AR/VR texnologiyasının təhsildə istifadəsi ilə tanış olublar. Universitetin Karyera mərkəzinin koordinatoru Elnurə Əhmədzadə və İnkişaf ofisinin layihə rəhbəri Jalə Rzayeva layihə çərçivəsində universitet tərəfindən görülən işlər haqqında iştirakçılara məlumat veriblər.

## STUDY VISIT TO IMC KREMS UNIVERSITY OF APPLIED SCIENCES IN AUSTRIA WITHIN UniLab PROJECT

On September 6-10, Khazar University staff visited the IMC Krems University of Applied Sciences in Krems, Austria within the framework of the UniLab project. Farid Musayev, the Head of the IT Department, Elnura Ahmadzada, Career Center coordinator, Jala Rzayeva, project manager of the Development Office, and Khagan Nurullayev, a student of the university's Faculty of Economics and Management, who studied Finance, took part in the visit.

During the trip, the university staff participated in a 3-day meeting at the IMC Krems University of Applied Sciences. The participants were welcomed by representatives of the university. The work done on the project and future plans were discussed at the meeting. During the visit, the representatives got acquainted with the Career center and career platform of IMC Krems University of Applied Sciences, as well as the use of AR/VR technology in education. During the trip, Elnura Ahmadzadeh, the coordinator of the Career Center, and Jala Rzayeva, the project manager of Development office, made a presentation and informed the participants about the work done by the university within the project.





## BEYNƏLXALQ ƏLAQƏLƏR OFİSİ TƏRƏFİNDƏN İNFOSESSİYA HƏFTƏSİ KEÇİRİLDİ

Sentyabrın 20-22-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisinin təşəbbüsü ilə İnfosessiya həftəsi keçirildi.

Layihə çərçivəsində ilk gün - sentyabrın 20-də Erasmus+ Tələbə Mobilliyi üzrə məlumat sessiyası baş tutdu. Sessiyada universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Beynəlxalq əlaqələr ofisindən Fatimə Vəliyeva Erasmus+ Tələbə Mobilliyi üzrə universitetlərə müraciət prosesi haqqında tələbələrə ətraflı məlumat verdilər.

Sessiyada, Türkiyə və İspaniyanın müxtəlif universitetlərində hazırda mübadilə proqramında olan tələbələr onlayn olaraq iştirak etdilər və Erasmus təcrübələrini paylaşdılar.



## INFOSESSION WEEK HELD BY INTERNATIONAL RELATIONS OFFICE



On September 20-22, an Infosession week was held at the initiative of the International Relations Office of Khazar University.

An information session on Erasmus+ Student Mobility took place on the first day of the project - September 20. In the session, Vlad Vernygora, vice-rector for international relations of the university, and Fatima Valiyeva from the international relations office gave detailed information to the students about the process of applying to universities for Erasmus+ Student Mobility.

In the session, students who are currently in exchange programs at different universities in Turkey and Spain participated online and shared their Erasmus experiences.

On the second day of the information session -



Məlumat sessiyasının ikinci günü - sentyabrın 21-də Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) əməkdaşları ilə görüş keçirildi. ASAP platformasının Layihə meneceri Sevda Mansurova və Beynəlxalq əlaqələr üzrə menecer Ramiyyə Şahgəldiyeva xaricdə təhsil almaq istəyən tələbələrə ASAP-ın fəaliyyəti, layihələr və gələcəkdə həyata keçiriləcək fəaliyyət planı ilə bağlı ətraflı izahat işi apardılar.

Məlumat sessiyasının üçüncü günü - sentyabrın 22-də Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyinin komandası ilə tələbələr arasında görüş keçirildi. Görüşdə İctimai Birliyin İctimaiyyətlə əlaqələr üzrə meneceri Suraya Rzayeva, Layihələr üzrə meneceri Kamil Seyidzadə, Milli Debat Proqramının üzvü Yaqut Novruzova, "Youth Inc" Sahibkarlıq Proqramının nümayəndələri Səfiyyə Babazadə və Mirzəli Mirzəzadə iştirak etdilər. Görüşün əsas məqsədi Xəzər Universitetində Debat İctimai Birliyinin nümayəndəliyinin ilkin formalaşmasını təmin etmək və tələbələrə Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyinin fəaliyyəti, layihələri barədə ətraflı məlumat vermək idi.







on September 21, a meeting was held with the employees of the Azerbaijani Students and Alumni Platform (ASAP). ASAP platform Project Manager Sevda Mansurova and International Relations Manager Ramiya Shahgaldiyeva gave a detailed explanation about ASAP's activities, projects and future action plan to students who want to study abroad.

On the third day of the information session - on September 22, a meeting between the team of the Debate Public Union and the students was held in Civil Society. Suraya Rzayeva, Public Relations Manager of the Public Union, Kamil Seyidzade, Project Manager, Yagut Novruzova, member of the National Debate Program, Safiya Babazade and Mirzali Mirzazade, representatives of the "Youth Inc" Entrepreneurship Program participated in the meeting. The main purpose of the meeting was to ensure the initial formation of the Debate Public Union's representation at Khazar University and to provide students with detailed information about the activities and projects of the Debate Public Union in Civil Society.

## "AZƏRBAYCANDA REKTORLAR KONFRANSININ YARADILMASI" LAYİHƏSİNİN NÖVBƏTİ İCLASI

## THE NEXT MEETING OF "ESTABLISHMENT OF RECTORS` CONFERENCE IN AZERBAIJAN" PROJECT

Sentyabrın 4-də Bakı Biznes Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) adlı Erasmus+ layihəsinin növbəti iclası Odlar Yurdu Universitetində keçirilib. Tədbirdə Odlar Yurdu Universitetinin rektoru professor Əhməd Vəliyev, layihə konsorsiumunun üzvü olan universitetlərin prorektorları və digər rəhbər şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə açan Odlar Yurdu Universitetinin prorektoru, dosent Qabil Qafarov iştirakçıları salamlayaraq, universitet və bir sıra yeniliklər haqqında ümumi məlumat verdi. İclasda layihənin 3-cü iş planı paketinin, o cümlədən Rektorlar Konfransının Strateji Planının və 2023-2025-ci illəri əhatə edən Fəaliyyət Planının hazırlanmasına dair məsələlər müzakirə edilib. Bildirilib ki, layihənin xarici tərəfdaşlarından olan Fransa Təhsil İnstitutunun bələdçiliyi ilə icra edilən 3-cü iş planının icrasına cari ilin mart ayından başlanılıb və bu istiqamətdə Bakı Biznes Universiteti və Fransa Təhsil İnstitutunun iştirakı ilə bir sıra onlayn görüşlər keçirilib.

Layihənin koordinatoru, Bakı Biznes Universitetinin Universitet-Sənaye işbirliyi departamentinin direktoru Gülşən Bayramova vurğulayıb ki, bu müddət ərzində müvafiq iş planına uyğun olaraq layihə çərçivəsində yaradılacaq komitələrlə bağlı qərar qəbul etmək məqsədilə 20 universitetdən 48 prorektorun iştirakı ilə sorğu keçirilib. Sorğunun nəticələrinə əsasən milli səviyyədə mövcud olan ehtiyaclar, eləcə də sorğudan əldə edilmiş nəticələr əsasında müvafiq komitələrin yaradılması qərara alınıb. Belə ki, Litvanın Mykolas Romeris Universitetinin nəzarəti altında Təhsil İşləri və Keyfiyyət Təminatı, İsveçin Kral Texnologiya Universitinin nəzarəti altında Elmi işlər, Polşa Rektorlar Konfransının nəzarəti altında Ali Məktəblərin Strateji İdarə Edilməsi, Belçikanın EFMD Akkreditasiya Təşkilatının nəzarəti altında Beynəlxalq Əlaqələr və Fransanın Təhsil İnstitutunun nəzarəti altında Tələbə İşləri üzrə komitələrin fəaliyyət göstərməsi

On September 4, the next meeting of the Erasmus+ project called "Establishment of the Rectors' Conference in Azerbaijan" (ECAR) was held at Odlar Yurdu University, coordinated by Baku Business University. The Rector of Odlar Yurdu University, Prof. Ahmet Valiyev, Vice-Rectors of universities that are members of the project consortium, and other leaders took part in the event.

The vice-rector of Odlar Yurdu University, associate professor Gabil Gafarov, who opened the meeting with an introductory speech, greeted the participants and gave general information about the university and a number of innovations. At the meeting, issues related to the preparation of the 3rd work plan package of the project, including the Strategic Plan of the Rectors' Conference and the Action Plan covering the years 2023-2025 were discussed. It was mentioned that the implementation of the 3rd work plan, realized under the guidance of the French Institute of Education, which is one of the foreign partners of the project, started in March of this year, and a number of online meetings were held in this direction with the participation of the Baku Business University and the French Institute of Education.

Gulshan Bayramova, coordinator of the project, director of the University-Industry Cooperation Department of Baku Business University, emphasized that during this period, a survey was conducted with the participation of 48 vice-rectors from 20 universities in order to make a decision regarding the committees to be created within the framework of the project in accordance with the relevant work plan. Based on the results of the survey, it was decided to establish the relevant committees based on the needs at the national level, as well as the results obtained from the survey. Thus, committees on Educational Affairs and Quality Assurance under the supervision of Mykolas Romeris University of Lithuania, Scientific Affairs under the supervision of the Royal University of Technology of Sweden, Strategic Management of Higher Education Institutions under the supervision of the Polish Rectors' Conference, International Relations under the supervision of the EFMD Accreditation Organization of Belgium and Student under the supervision of the French Institute of Education are supposed to operate. It was noted

nəzərdə tutulur. Qeyd edilib ki, ilk təlim CPU/FEI tərəfindən CRUE, KTH, MRU/LURK və CRASP-nin iştirakı ilə 2022-ci ilin oktyabrında təşkil olunacaqdır.

Sonra Strateji Planın tərtib edilməsi üzrə yaradılmış işçi qrupu arasında iş bölgüsü aparılıb, nəzərdə tutullan tapşırıqların icra mexanizmləri müzakirə edilib. G.Bayramova yekunda qeyd edib ki, layihə çərçivəsində Rektorlar Konfransının 2023-2025-ci illəri əhatə edən Strateji Planının hazırlanmasına yaxın zamanda start veriləcəkdir.

İnkişaf ofisinin direktoru Raziyə İsayeva Xəzər Universitetinin rəsmisi olaraq iclasda qeyd olunan məsələlər ətrafında geniş müzakirələrə qoşulub.

that the first training will be organized by CPU/FEI with the participation of CRUE, KTH, MRU/LURK and CRASP in October 2022.

After that, division of work was carried out among the working group created for the preparation of the Strategic Plan, and the implementation mechanisms of the planned tasks were discussed. In the end, G. Bayramova noted that within the framework of the project, the preparation of the Strategic Plan of the Rectors' Conference covering the years 2023-2025 will be started soon.

Director of the development office, Raziya Isayeva, as an official representative of Khazar University, joined the extensive discussions on the issues mentioned in the meeting.

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ TÜRKİYƏ SƏFİRLİYİNDƏ BAKININ DAŞNAK-BOLŞEVİK İŞĞALINDAN AZAD EDİLMƏSİNİN 104-CÜ İLDÖNÜMÜ TƏDBİRİNDƏ

Sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasını əks etdirən rəsm sərgisi ilə tanış olublar.

Sonra Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, iki ölkənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Milli Məclisin deputatları Anar İskəndərov, Aydın Mirzəzadə, Hikmət Babaoğlu və Ramil Həsən çıxış edərək, 15 sentyabr hadisələrinin əhəmiyyətindən söz açmış, Türkiyə-Azərbaycan qardaşlığından danışmışlar.

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu Azərbaycan-Türkiyə əlaqələrinin tarixi haqqında sənədləri təqdim edib, Cənubi Qafqazda ermənilərin yerləşdirilməsi haqqında danışıb və Osmanlı-Azərbaycan münasibətlərinə nəzər salıb.

Tədbir "Qurani-Kərim"in tilavəti və şəhidlərin ruhuna duaların oxunması ilə başa çatıb.

*AZƏRTAC* tədbir haqqında fotolarla müşayiət olunan geniş xəbər yayımlayıb:

## DEPARTMENT HEAD OF KHAZAR UNIVERSITY AT THE EVENT OF THE 104TH ANNIVERSARY OF THE LIBERATION OF BAKU FROM THE DASHNAK-BOLSHEVIK OCCUPATION AT THE TURKISH EMBASSY

On September 15, an event was held at the Turkish embassy in Azerbaijan on the 104th anniversary of the liberation of Baku from the Dashnak-Bolshevik occupation by the Caucasian Islamic Army.

The participants of the event first got acquainted with the art exhibition depicting the liberation of Baku from occupation by the Caucasian Islamic Army.

Then the memory of the martyrs of Azerbaijan and Turkey was commemorated with a minute of silence, and the national anthems of the two countries were played.

Ambassador of Turkey to Azerbaijan Cahit Bağçı, President of the International Turkish Culture and Heritage Foundation Gunay Efendiyeva, General Secretary of TURKPA Mehmet Süreyya Er, MPs Anar Iskenderov, Aydın Mirzazadeh, Hikmet Babaoğlu and Ramil Hasan spoke at the event and highlighted the importance of the events of September 15. They talked about Turkish-Azerbaijani brotherhood.

Associate Professor Telman Nüsratoglu, head of Khazar University's History and Archeology Department, presented documents on the history of Azerbaijan-Turkey relations, talked about the placement of Armenians in the South Caucasus, and looked at Ottoman-Azerbaijani relations.

The event ended with the recitation of the Holy Quran and prayers for the souls of the martyrs.

*AZERTAC* published a wide news about the event accompanied by photos:

*https://azertag.az/xeber/Turkiyenin_olkemizdeki_sefirliyinde_Bakinin_dasnak_bolsevik_isgalindan_azad_edilmesinin_104_cu_ildonumu_qeyd_olunub-2293049*

## DÖVLƏT TƏHSİL QRANTI İLƏ XARİCİ TƏLƏBƏLƏR XƏZƏR UNİVERSİTETİNDƏ DƏ TƏHSİL ALACAQ

Elm və Təhsil Nazirliyi və Xarici İşlər Nazirliyinin birgə məlumatında bildirilir ki, xarici tələbələrə Azərbaycan Respublikasının ali təhsil müəssisələrində dövlət hesabına təhsil imkanı təqdim edən təhsil qrantı proqramlarına 2022-2023-cü tədris ili üzrə namizəd seçimi prosesi başa çatıb.

Proqramın şərtlərinə əsasən illik əsasda iki istiqamətin (İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı) hər birisi üzrə 20 əcnəbi tələbəyə (beləliklə, hər iki proqram üzrə ümumilikdə 40 nəfər) təhsil qrantının ayrılması nəzərdə tutulur.

Məlumatda qeyd olunur ki, seçilmiş tələbələr əsasən Azərbaycan Tibb Universiteti, ADA Universiteti, Xəzər Universiteti olmaqla Azərbaycanın 11 ali təhsil müəssisəsində təhsil alacaqlar.

*AZƏRTAC* və digər media vasitələri bu barədə geniş xəbər yayımlamışlar.

## FOREIGN STUDENTS TO STUDY AT KHAZAR UNIVERSITY WITH A STATE EDUCATION GRANT

The joint information of the Ministry of Science and Education and the Ministry of Foreign Affairs states that the candidate selection process for the 2022-2023 academic year for the educational grant programs that provide foreign students with the opportunity to study at the higher educational institutions of the Republic of Azerbaijan at the state expense has been completed.

Under the terms of the program, educational grants will be allocated to 20 foreign students (so a total of 40 people for both programs) on an annual basis in two directions (Organization of Islamic Cooperation and Non-Aligned Movement).

It is noted in the information that the selected students will study in 11 higher educational institutions of Azerbaijan, mainly Azerbaijan Medical University, ADA University, Khazar University.

*AZERTAC* and other media have published extensive news about this.

*https://azertag.az/xeber/Xarici_telebeler_uchun_tehsil_qranti_proqramlarina_2022_2023_cu_tedris_ili_uzre_namized_sechimi_basa_chatib-2301344*

The British Psychological Society

## "XƏZƏR"İN MÜƏLLİMİ "THE BRITISH PSYCHOLOGICAL SOCIETY"-IN ÜZVLÜYÜNƏ QƏBUL EDİLİB

Sentyabrın 21-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi klinik psixoloq Nilufər Əlizadə "The British Psychological Society"-nin (Britaniya Psixologiya Cəmiyyəti-BPC) üzvlüyünə qəbul edilib.

Qeyd edək ki, dünyanın ən nüfuzlu psixoloji qurumlarından biri olan Britaniya Psixologiya Cəmiyyəti Böyük Britaniyanın ən böyük psixologiya icmasıdır. "Graduate Membership" üzvlüyünü əldə etmək üçün namizədlərin BPC tərəfindən akkreditasiya olunmuş psixologiya ixtisası üzrə 85+ GPA təhsil alması və elmi tədqiqat işləri ilə məşğul olması əsas şərtlərdən biridir.

## KHAZAR UNIVERSITY FACULTY MEMBER ADMITTED TO "THE BRITISH PSYCHOLOGICAL SOCIETY" MEMBERSHIP

On September 21, clinical psychologist Nilufar Alizadeh, the lecturer of Khazar University's Psychology Department, was admitted as a member of "The British Psychological Society" (BPC).

Note that the British Psychological Society, which is one of the most influential psychological organizations in the world, is the largest psychology community in Great Britain. In order to obtain the membership of the "Graduate Membership", candidates must have an 85+ GPA in psychology major accredited by BPC and engage in scientific research.



## ERASMUS+ AZƏRBAYCAN MİLLİ OFİSİNİN DİREKTORU İLƏ GÖRÜŞ

## MEETING WITH ERASMUS+ DIRECTOR OF AZERBAIJAN NATIONAL OFFICE

Sentyabrın 26-da Erasmus+ Azərbaycan Milli Ofisi ilə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları arasında Erasmus+ proqramı barədə görüş keçirilib.

Görüşdə Erasmus+ Azərbaycan Milli Ofisinin direktoru Pərviz Bağırov Erasmus+ layihələri haqqında təqdimat edib. O, Erasmus layihələrinə müraciətin yeni qaydaları, proqramın əsas istiqamətləri, yerli və xarici universitetlərin layihədə iştirakı, yeni layihələr və perspektivlər barədə ətraflı məlumat verib.

Avropa İttifaqının (Aİ) ali təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlığın genişləndirilməsində Erasmus+ proqramının və Aİ-nin dəstəklədiyi digər təhsil proqramlarının imkanlarından səmərəli istifadə edilməsinin zəruriliyindən danışan P. Bağırov qeyd edib ki, Azərbaycan universitetləri, xüsusilə Xəzər Universiteti, bu istiqamətdə mühüm məsuliyyət daşıyır.

Pərviz Bağırov Avropa Komissiyasının layihələrin idarə edilməsi siyasətində yeni dəyişiklikləri də vurğulayaraq, daha yaxşı nəticələr əldə etmək üçün həyata keçiriləcək yeni layihələrin bu dəyişikliklərə uyğun olmasının zərurətindən danışdı.

Bağırov onu da qeyd edib ki, Aİ ilə daha çox birgə və davamlı layihələrin müəyyən edilməsi üçün düzgün perspektivlərin seçilməsi vacibdir.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və universitetin rektoru dosent İradə Xəlilova tərəfindən P. Bağırova universiteti maraqlandıran suallar verilmiş və akademik heyətlə yeni perspektivlərin həyata keçirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Tərəflər Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramı üzrə "Məlumat Günü"nün keçirilməsinə dair razılıq əldə ediblər.

On 26th of September, the meeting was held between the Azerbaijan National Erasmus Office and met with Khazar University leadership and staff members on ERASMUS + programs.

At the meeting, the Director of the Azerbaijan National Office of ERASMUS + Parviz Bagirov presented on ERASMUS projects. He provided detailed information on the new rules for applying for ERASMUS projects, the main directions of the program, participation in the project of local and foreign universities, and new projects and prospects.

Speaking about the need to effectively use the opportunities of the Erasmus + program and other EU-supported educational programs in expanding international cooperation with higher education institutions of the European Union (EU), P.Bagirov noted that Azerbaijani universities, especially Khazar University have an important responsibility in this direction.

Parviz Baghirov also punctuated the new changes in the project management policy of European Commission and called university to adapt the newly implemented projects to these changes for better results.

Baghirov also noted that right perspectives are needed to determine for more joined and sustainable projects with EU.

The meeting was attended by Prof. Hamlet Isakhanli, the Founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees; Associate Professor Irada Khalilova, Rector of Khazar University who gave questions of interest to the Mr.Baghirov, and discussions were held on implementing new prospects by Academic staff.

The sides gained an agreement to hold an "Information Day" on the European Union-funded ERASMUS + program in upcoming months.





## QAZİ UNİVERSİTETİNİN PROFESSORU "XƏZƏR"DƏ

Sentyabrın 26-da Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə Türkiyənin Ankara şəhərində yerləşən Qazi Universitetindən Prof. Asuman Aşık ilə görüş keçirildi.

Görüşdə İngilis dili və ədəbiyyatı departamentinin koordinatoru Milana Abbasova, baş müəllimi Firəngiz Nəsirova, assistenti Lalə Misirxanova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin koordinatoru Tərlan Orucova, Keyfiyyət təminatı şöbəsinin assistenti Kəmalə Mustafayeva və Beynəlxalq əlaqələr üzrə koordinator Fatimə Vəliyeva iştirak etdilər.

Qeyd edək ki, Prof. Asuman Aşık Erasmus+ KA 107 İşçi Heyətinin Mobilliyi Mübadilə Proqramı çərçivəsində sentyabrın 26-30-da İngilis dili və ədəbiyyatı departamentində mühazirə oxumaq üçün Xəzər Universitetinə dəvət olunub.

## GAZI UNIVERSITY PROFESSOR AT KHAZAR UNIVERSITY

On September 26, a meeting was held with Prof. Asuman Aşık from Gazi University, Ankara, Türkiye, organized by Khazar University's International Relations Office.

The meeting was attended by Milana Abbasova, the coordinator of the English language and literature department, Firangiz Nasirova, the head teacher of the department, Lala Misirkhanova, deparrment's assistant, Tarlan Orujova, the coordinator of the School of Humanities, Education and Social Sciences, Kamala Mustafayeva, the assistant of the Quality Assurance Department, and Fatima Valiyeva, the coordinator of international relations, took part in the meeting.

It should be noted that Prof. Asuman Aşık was invited to Khazar University to give a lecture at the Department of English Language and Literature on September 26-30 within the Erasmus+ KA 107 Staff Mobility Exchange Program.



# VƏTƏN ŞƏHİDLƏRİNİN ANIM MƏRASİMİ

Sentyabrın 27-də Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə "Vətən şəhidlərinin anım mərasimi" adlı tədbir keçirildi.

Tədbir Azərbaycanın istiqlaliyyəti uğrunda, o cümlədən II Qarabağ müharibəsi zamanı şəhid olmuş vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlandı. Sonra Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu, departamentin müəllimləri Dr. Bayram Quliyev, Dr. Söhrab Mustafayev və universitet tələbələri çıxış etdilər.

Tədbirdə Rus çarlığı dövründə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, I Qarabağ müharibəsinin səbəb və nəticələri, 30 illik işğal dövrü, bu dövr ərzində Azərbaycanın mədəni irsinə, ekologiyasına vurulan ziyanlar, qərbin ikili standart siyasəti, 44 günlük vətən müharibəsini şərtləndirən amillər, Türkiyənin rolu, müharibənin Azərbaycan, region və dünya üçün nəticələri ətraflı şəkildə izah edildi.






# COMMEMORATION OF THE MARTYRS OF THE OTHERLAND

On September 27, 2022, an event called "Commemoration of the Martyrs of the Motherland" was organized by the Department of History and Archeology at Khazar University.

The event began with a minute's silence commemorating the memory of the martyres who died for the independence of Azerbaijan during the Second Karabakh War and playing of the National Anthem of the Republic of Azerbaijan. Then the rector of Khazar University, associate professor Irada Khalilova, head of the Department of History and Archeology Dr. Telman Nüsratoglu, lecturers of the department Dr. Bayram Guliyev, Dr. Sohrab Mustafayev and university students spoke.

During the event, the resettlement of Armenians to Azerbaijani lands during the Russian Empire, the causes and consequences of the First Karabakh War, the 30-year period of occupation, the damage caused to the cultural heritage and ecology of Azerbaijan during this period, the double standard policy of the West, the factors that caused the 44-day war, the role of Turkey, consequences of the war for Azerbaijan, the region and the world were explained in detail.

## ÖLKƏ SAYTLARI: XƏZƏRİN SƏVİYYƏSİ SÜRƏTLƏ DÜŞÜR - HANSI FƏSADLAR BAŞ VERƏ BİLƏR?

## COUNTRY WEBSITES: THE LEVEL OF THE CASPIAN SEA IS RAPIDLY FALLING - WHAT COULD BE THE CONSEQUENCES?

2022-ci il avqustun 31-də 10-dan çox ölkə saytları bu problemlə bağlı analitik müsahibə dərc etmişlər. Sorğu Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə və Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, su məsələləri üzrə ekspert, "AZƏRSU" ASC yanında Müşahidə Şurasının üzvü Rövşən Abbasova ünvanlanıb.

Geniş müsahibədə onlar qeyd etmişlər ki, Xəzər dənizi qapalı su hövzəsi olduğundan onun səviyyəsində periodik dəyişmələr labüddür. Səviyyənin dəyişməsinin başlıca amili su hövzəsinin iqlimi və Xəzər dənizinə axan çayların suyunun azalmasıdır. Nəzərə çatdırmışlar ki, hazırda milli adaptasiya strategiyası hazırlanır. Bu strategiyanın üç əsas istiqamətindən biri də Xəzər dənizinin sahil zonalarının idarə olunmasıdır. Burada Xəzər dənizinin səviyyəsinin aşağı düşməsinə necə hazırlaşmaq lazım olduğu əksini tapıb. Bu istiqamətdə artıq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin partnyorluğu ilə BMT-nin İnkişaf Proqramı layihə həyata keçirir və xeyli işlər görülüb.

On August 31, 2022, more than 10 country websites published an analytical interview about this problem. The request was addressed to Rasim Sattarzadeh, adviser to the Minister of Ecology and Natural Resources, and Rovshan Abbasov, head of the Geography and Environment Department of Khazar University, expert on water issues, and member of the Supervisory Board under "AZARSU" OJSC.

In an extensive interview, they noted that since the Caspian Sea is a closed water basin, periodic changes in its level are inevitable. The main factor of the change of the level is the climate of the water basin and the decrease of the water of the rivers flowing into the Caspian Sea. They pointed out that a national adaptation strategy is currently being prepared. One of the three main directions of this strategy is the management of the coastal zones of the Caspian Sea. Here it is reflected how to prepare for the lowering of the level of the Caspian Sea. In this direction, the UN Development Program in partnership with the Ministry of Ecology and Natural Resources is already implementing a project and a lot of work has been done.

*https://baku.ws/gismeteo/160932 və s.*




## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZTV-NİN "ƏSAS MƏSƏLƏ" PROGRAMINDA

## HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT IN "MAIN ISSUE" PROGRAM OF AZTV

2022-ci il sentyabrın 8-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu AZTV-nin "Əsas Məsələ" proqramının qonağı olmuşdur. Telman Nüsrətoğlu Azərbaycan dövləti tərəfindən dünyanın müxtəlif ölkələrindən səlahiyyətli siyasətçi və elm adamlarının, səyyahların işğaldan azad olunmuş ərazilərə dəvət edilməsini dəyərləndirərək, bu addımın erməni yalanlarının ifşa edilməsi və işğal dövründə mədəniyyətimizə qarşı həyata keçirilən soyqırımın dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mühüm rol oynadığını qeyd etmişdir. Eyni zamanda, Telman Nüsrətoğlu çıxışında Qarabağ və Şərqi Zəngəzurda erməni vandalizminə məruz qalmış Türk İslam abidələri haqqında da ətraflı məlumat vermişdir.

On September 8, 2022, Khazar University History and Archeology Department Head Telman Nusratoglu was a guest of AZTV's "Main Issue" program. Telman Nusratoglu appreciated the invitation of competent politicians and scientists from around the world, travelers to the territories liberated from the occupation by the Azerbaijani government, and noted that this step played an important role in exposing Armenian lies and bringing the genocide against our culture during the occupation to the attention of the world community. Moreover, in his speech, Telman Nüsratoğlu gave detailed information about the Turkish-Islamic monuments that were subjected to Armenian vandalism in Karabakh and Eastern Zangezur.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ MƏDƏNİYYƏT TV - DƏ YAYIMLANAN "SƏHƏR ÇAĞI" VERİLİŞİNDƏ

## THE LECTURER OF PSYCHOLOGY DEPARTMENT IN "IN THE MORNING" PROGRAM BROADCAST ON MƏDƏNIYYƏT TV

2022-ci il sentyabrın 13-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi, klinik psixoloq Nilufər Əlizadə "Mədəniyyət TV" -də yayımlanan "Səhər çağı" verilişinin qonağı olub.

Proqramda sentyabr ayı ərzində aktual olan məsələlərdən biri - yay tətilindən sonra yeni tədris və iş dövrünə adaptasiya, fəsil dəyişikliyinin insan psixologiyasına təsirləri müzakirə olunub. Canlı yayımda psixoloq qeyd olunan məsələnin elmi tərəflərini açıqlayaraq, insanların yaşadığı duyğu, durum dəyişikliklərinin səbəbləri və eyni zamanda praktik həll yollarından danışmışdır.

On September 13, 2022, clinical psychologist Nilufar Alizadeh, the lecturer of Khazar University's Psychology Department, was a guest of the "Səhər çağı" ("In the morning") program broadcast on "Mədəniyyət TV" ("Culture TV"). In the program, one of the most relevant issues during September - adaptation to the new teaching and working period after the summer vacation, the effects of the season change on human psychology were discussed. In the live broadcast, the psychologist explained the scientific aspects of the mentioned issue, talked about the emotions experienced by people, the reasons for changes in the situation, and at the same time practical solutions.

*https://youtu.be/N6_ICJ0FlMw*

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZTV-DƏ

## HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT AT AZTV

2022-ci il sentyabrın 15-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu AZTV televizyasında Ermənistan-Azərbaycan sərhəddində baş vermiş son döyüşləri, Ermənistanın sülh prosesini sabotaj etmə cəhdlərinin altında yatan səbəbləri, Zəngəzur dəhlizi ətrafında yaranan geosiyasi durumu şərh etmişdir.

On September 15, 2022, Telman Nüsratoğlu, Head of the Department of History and Archeology of Khazar University, spoke on Azerbaijan's AZTV television about the latest battles on the Armenian-Azerbaijani border, the underlying reasons for Armenia's attempts to sabotage the peace process, and the geopolitical situation around the Zangezur corridor.

## DEPARTAMENT MÜDİRİ AZTV- NİN "ƏSAS MƏSƏLƏ" PROQRAMINDA

## DEPARTMENT HEAD IN "MAIN ISSUE" PROGRAM OF AZTV

2022-ci il sentyabrın 21-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu AZTV-nin "Əsas Məsələ" proqramının qonağı olmuş, regionda yaranan son vəziyyət, Azərbaycan-Ermənistan münasibətlərinin gələcəyi ilə bağlı fikirlərini tamaşaçılarla bölüşmüşdür

On September 21, 2022, Khazar University History and Archeology Department Head Telman Nüsratoglu was a guest of AZTV's "Main Issue" program and shared his views on the latest situation in the region and the future of Azerbaijan-Armenia relations with the audience.




# BELARUS MİLLİ KİTABXANASI

1922-ci ildə əsası qoyulmuş kitabxananın yeni 23 mərtəbəli binasının rəsmi açılışı 2006-cı il iyunun 16-da olmuşdur. Bina üçün keçirilmiş müsabiqədə memarlar Viktor Kramarenko və Mixail Vinoqradovun "Belarus almazı" modeli birinci yeri tutmuşdur.

2018-ci ilin fevral ayı üçün verilmiş məlumata görə, kitabxananın fondu 9 milyon 800 min vahiddən ibarət olmuşdur.

Kitabxana 2013-cü ildə *Flavorwire* adlı Amerika nəşrinin əfsanəvi memarlıq işləri siyahısında 11-ci yerə layiq görülmüşdür. Belarusun paytaxtı Minsk şəhərinin simvollarından biri sayılır.



**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin Musiqi və incəsənət departamentinin professoru Cavanşir Quliyevə qardaşı

**Elşad Quliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi